Bu bir xalq qəzetidi

ƏDALƏT

## Türkiyə hərbçiləri 1 il Qarabağda olacaq

**Dost və qardaş ölkə Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək mücadiləsi illərdir davam edir. Ermənistanın sentyabrın 27-də Dağlıq Qarabağda cəbhə xətti boyunca hərbi və mülki hədəflərə qarşı hücumlarına cavab olaraq, Azərbaycan özünümüdafiə hüququna əsaslanan əks əməliyyatı nəticəsində işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində mühüm uğurlar əldə edib.**

Bu barədə Prezident Rəcəb Tayyib Ərdoğanın imzası ilə Türkiyə Böyük Millət Məclisinə Azərbaycana hərbi qüvvə göndərməklə bağlı daxil olan sənəd layihəsində deyilir.

Qeyd edilir ki, Azərbaycan, Rusiya və Ermənistan arasında əldə olunmuş razılığa əsasən, bölgədə 10 noyabr tarixindən atəşkəs başlayıb və atəşkəsə riayət edilib-edilmədiyini monitorinq etmək üçün işğaldan azad edilmiş Azərbaycan ərazisində Rusiya ilə birgə Monitorinq Mərkəzi yaradılacaq.

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin harada yerləşəcəyini Azərbaycan müəyyən edəcək.

Layihəyə əsasən, Türkiyə hərbçiləri ölkə konstitusiyasına müvafiq olaraq 1 il müddətinə Dağlıq Qarabağdakı Rusiya-Türkiyə birgə Monitorinq Mərkəzində fəaliyyət göstərəcəklər.

## İmran Xan:"Azərbaycan Ordusu şücaət göstərdi"



**Pakistanın Baş Naziri İmran Xan Azərbaycan Silahlı Qüvvələrinin Dağlıq Qarabağın işğaldan azad edilməsi əməliyyatlarını alqışlayıb.**

Adalet.az xəbər verir ki, bu barədə Pakistan lideri ölkə televiziyasına müsahibəsində deyib. "Azərbaycan Ordusu nümunəvi şücaət göstərdi", - deyən Baş Nazir əlavə edib ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı heç bir mübahisə yoxdur. "Bütün dünya Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edir. Onlar (azərbaycanlılar) öz ərazilərinə qayıdırlar".

## Azərişıq: Cəbrayıl və Şuşa şəhəri elektrik enerjisi ilə təchiz edildi

**”Azərişıq” ASC işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatı istiqamətində işləri davam etdirir.**

**Cəbrayıl rayonundan sonra Şuşa şəhəri də elektrik enerjisi ilə təchiz edilib. ”Azərişıq”dan Adalet.az-a bildirilib ki, Ali Baş Komandanın rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərimizin dayanıqlı və keyfiyyətli elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. Yaxın günlərdə digər ərazilərimzdə də Azərbaycan işığı yanacaq.**

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## 44 GÜNLÜK MÜHARİBƏ

**Onun qəhrəmanı Sərkərdəmizdir**

Bax: səh.2

## Azərbaycan koronavirusla bağlı tam qapanmaya gedə bilərmi?



**Ümid edirik ki, Azərbaycanda koronavirusla bağlı hər kəs tövsiyələrə riayət edəcək və ölkə üzrə tam qapanmaya getməyə ehtiyac yaranmayacaq.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı Azərbaycanda lokal deyil, ölkə üzrə qapanmanın tətbiqinə ehtiyacın olub-olmaması barədə sualına cavab verərkən deyib. Onun sözlərinə görə, hazırda Azərbaycanda yoluxma hallarının daha sürətlə artdığı bəzi şəhər və kəndlərə gediş-gəlişin qismən məhdudlaşdırılması kimi yeni yanaşmalardan istifadə olunur. Bu, hökumətin məhəllələrdə və kəndlərdə vəziyyəti yaxından izlədiyini göstərir:

"Virusun yayılmasının qarşısının alınması insanların tövsiyələrə nə dərəcədə riayət etməsindən asılıdır. Sadə gigiyenik qaydalara əməl etməklə, fiziki məsafə saxlamaqla və kütləvi məkanlara getməkdən çəkinməklə özümüzü və yaxınlarımızı qoruya bilərik".

## İşğaldan azad olunmuş ərazilərdə FHN-in növbəti yerli strukturları fəaliyyətə başladı



**Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi işğaldan azad edilmiş ərazilərimizdə yerli strukturlarının təşkilini davam etdirir.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin Şuşa şəhər, Cəbrayıl, Zəngilan və Qubadlı rayon Dövlət Yanğından Mühafizə hissələri müvafiq olaraq Şuşa, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərində fəaliyyətə başlayıb. Bütün hissələr xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqlarla təchiz edilib. Xatırladaq ki, bundan əvvəl Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli şəhəri və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli strukturları fəaliyyətə başlamışdı.

## Qarabağda Rusiya sülhməramlılarının bütün postları quruldu



**Rusiya sülhməramlıları Dağlıq Qarabağda ”Cənub” və ”Şimal” məsuliyyət zonalarının hər birində doqquz müşahidə postu yerləşdirib. Bu barədə Rusiyanın Müdafiə Nazirliyi məlumat yayıb.**

Qurumdan bildirilib ki, 10 noyabr 2020-ci ildən etibarən Qarabağda Laçın dəhlizində yeddi müvəqqəti müşahidə postu qurulub.

”Dünən 15-ci əlahiddə motoatıcı briqadanın bölmələri tərəfindən ”Şimal” məsuliyyət zonasında müşahidə postlarının qurulması tamamlanıb”, - deyə Rusiya MN-dən bildirilib.

Nazirlikdən qeyd olunub ki, hazırda Rusiya sülhməramlıları ”Cənub” və ”Şimal” məsuliyyət zonasının hər birində doqquz müşahidə məntəqəsində Qarabağda atəşkəsin gözlənilməsinə nəzarət edirlər.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 153 (5813) 17 noyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Yevlaxdan Xankəndinə dəmir yolu çəkilə bilər



Bax:səh-2

## Xudafərin körpüləri UNESCO-nun siyahısına daxil edilə bilər



**Xudafərin körpüləri Azərbaycan memarlıq məktəbinin ən görkəmli nümunələrindən biridir.**

Bunu jurnalistlərə açıqlamasında mədəniyyət nazirinin birinci müavini, mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov deyib.

O bildirib ki, Xudafərin körpüləri bütün meyarlarına görə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməyə layiq olan abidələrdir: ”Bununla əlaqədar olaraq biz artıq nominasiya dosyesinin hazırlanması prosesinə başlamışıq. İlk növbədə Xudafərin körpüləri UNESCO-nun ilkin siyahısına daxil edilməlidir. Bundan sonra isə Xudafərin körpələri sərhəd bölgəsində yerləşdiyi üçün İran İslam Respublikası ilə birgə onun Ümumdünya İrs Siyahısına daxil edilməsinə çalışacağıq. Bu, bizim üçün önəmli məsələlərdən biridir. Çünki Xudafərin körpüləri Azərbaycan memarlığının incilərindən hesab edilir”.

## İran XİN:Qarabağla bağlı əldə olunan razılaşma effektiv addımdır

***Əldə olunan razılaşma effektiv addımdır. Adalet.az-ın məlumatına görə, bunu İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Səid Xətibzadə noyabrın 10-da Qarabağla bağlı Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında imzalanan bəyanatı şərh edərkən deyib.***

***S.Xətibzadənin sözlərinə görə, İran Qarabağ münaqişəsinin daimi həllinin ölkələrin hakimiyyət hüququ prinsipi əsasında olduğunu düşünür:***

***"İran bu prinsip əsasında olan hər bir addımı dəstəkləyir".***

## Erməni işğalçıları Şuşa yaxınlığında yüzlərlə cəsədi atıb getdi



**Şuşanın yaxınlığındakı ərazidə yüzlərlə erməni işğalçısının cəsədi qalıb.**

”RİA Novosti”nin məlumatına görə, bu barədə separatçı rejimin başçısı Arayik Arutyunyan bildirib.

O, bu müharibədə çoxlu insan itkisi verdiklərini etiraf edib.

”Bunu Şuşanın girəcəyində çıxarılan 150 hərbçinin cəsədi sübut edir Daha yüzlərlə cəsəd isə döyüş meydanında qalıb. Bu qurbanların yaxınları və bütün xalq üçün qeyri-müəyyənlik yaradır”, - deyə Arutyunyan bildirib.

## Cəbrayılda komendant postunu qanunsuz keçənlər saxlanıldı



**Hərbi vəziyyət elan olunduğu ərazidə tətbiq edilmiş xüsusi giriş-çıxış rejimini pozan şəxslər saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, Cəbrayıl şəhəri ərazisində hərbi vəziyyətlə əlaqədar yaradılmış komendant postunda xidmət aparan polis əməkdaşları posta yaxınlaşan ”Toyota” markalı avtomobilə ”Saxla” işarəsi verib, lakin buna baxmayaraq sürücü hərəkətini davam etdirib.

Həmin avtomobil digər postda polis əməkdaşları tərəfindən saxlanılıb.

Sürücü - Füzuli rayon sakini R.Bayramlı və 5 sərnişini saxlanılaraq Rayon Polis Şöbəsinə gətiriliblər. Onların barəsində İnzibati Xətalar Məcəlləsinin 535.1 (Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə) və 517-2.6-cı (Hərbi vəziyyətin elan olunduğu ərazidə (ərazilərdə) tətbiq edilmiş xüsusi giriş-çıxış rejiminin, habelə yaşayış və ya olduğu yeri seçmək hüququna qoyulmuş məhdudiyyətin pozulmasına görə) maddələri ilə protokollar tərtib olunub.

**Rayon məhkəməsi tərəfindən onlar hər biri 200 manat məbləğində cərimə olunublar.**

## Barak Obama: “Bayden ABŞ-ın növbəti prezidenti olacaq”



**ABŞ-ın keçmiş prezidenti Barak Obama demokratların prezident seçkilərindəki namizədi Co Baydenin qalib olacağına əminliyini ifadə edib.**

Bu barədə ”RİA Novosti” məlumat yayıb.

”Co Bayden ABŞ-ın növbəti prezidenti, Kamala Harris isə növbəti vitse-prezidenti olacaq”, - deyə B.Obama bildirib.

## Kəlbəcəri tərk edən ermənilər heyvanları öldürüb, leşlərini əraziyə atırlar

**Kəlbəcəri tərk edən ermənilər heyvanları öldürüb, leşlərini əraziyə atırlar.**

Bununla bağlı görüntüləri rusiyalı jurnalistlərdən biri sosial şəbəkədə yayımlayıb.

Jurnalist bildirib ki, ermənilər at və uzunqulağı apara bilmədikləri üçün başlarını kəsib atırlar. Qeyd edək ki, buna qədər Kəlbəcəri tərk edən ermənilərin evləri yandırması, ağacları qırması və elektrik dirəklərini çıxarması ilə bağlı görüntülər yayımlanmışdı.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya dövlət başçısı Vladimir Putinin və Ermənistan baş naziri Nikol Paşinyanın birgə imzaladığı bəyanata əsasən, Kəlbəcərin Azərbaycana təhvil verilməsi noyabrın 15-də gerçəkləşməli idi. Ancaq Ermənistan tərəfi bu prosesin noyabrın 25-dək uzadılması ilə bağlı Rusiya vasitəsilə Azərbaycana müraciət edib. Azərbaycan tərəfi müraciəti qəbul edib.

## “Azərbaycan növbəti dəfə insani dəyərlərə sadiqliyini nümayiş etdirdi”

**Ermənistana Kəlbəcəri boşaltmaq üçün əlavə 10 gün vaxt verməklə Azərbaycan növbəti dəfə insani dəyərlərə sadiqliyini nümayiş etdirdi.**

Bu barədə Trend-ə Türkiyə hökumətindən bildiriblər.

Qeyd olunub ki, Ankara əvvəlki kimi qardaş Azərbaycanı və onun Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə bütün addımlarını dəstəkləyir.

Xatırladaq ki, Ermənistan tərəfi Rusiya vasitəsilə Kəlbəcərdən çıxmaq məqsədilə vaxtın uzadılması üçün müraciət edib. Buna görə də Azərbaycan tərəfi humanizmdən çıxış edərək Ermənistanın Kəlbəcəri noyabrın 25-dək təhvil verməsinə razılıq verib.

## Fulya Öztürk: “Bütün Bərdə ağlamaq səsimi, hayqırtımı eşitdi”




**”Bərdədə yeddi cəsədin arasında canlı yayım etdim. Qan iyi məni tutdu”.**

**Bunu CNN Türk televiziyasının müxbiri Fulya Öztürk bildirib. Facıə zamanı hiss etdiklərini qeyd edən müxbir deyib:**

**”Efir bitəndən sonra bütün Bərdə ağlamaq səsimi, hayqırtımı eşitdi”.**

## *Ermənistan ombudsmanı: "Paşinyan vətəndaş qarşıdurmasına çağırır"*



**Ermənistanın ombudsmanı Arman Tatoyan ölkənin baş naziri Nikol Paşinyanın son açıqlamasını təhlükəli adlandırıb.**

"RİA Novosti" xəbər verir ki, Tatoyan bununla bağlı "Facebook" hesabında fikirlərini bölüşüb.

"Baş nazirin cəbhədəki hərbçilərə etdiyi çağırışı təhlükəlidir. Bu, vətəndaş qarşıdurmasına çağırışdır", - deyə o bildirib.

Qeyd edək ki, Paşinyan "divar dibində ulayan" adlandırdığı rəqibləri ilə məsələni həll etmək üçün cəbhədəki əsgərləri İrəvanda gözlədiyini açıqlayıb.

## GÜNÜN LƏTİFƏSİ




Hidayət Elvüsal Vəli Xramçaylıya:

**- Vəli, canın üçün dünən metroda bir qız gördüm, dünya gözəli. Yaman qəşəng idi, özümü saxlıya bilmədim, qıza bir göz vurdum.**

Vəli:

- Bəs qız nə dedi qağa?

**- Durdu ayağa, dedi ki, gəl otur əmi.**

## Prezident və xanımı Füzuli və Cəbrayıl şəhərlərində olublar



**Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.**

**Adalet.az xəbər verir ki, bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.**

### *Müsəlman Alimləri Beynəlxalq Birliyinin sədri və baş katibi Prezident İlham Əliyevə məktub göndərib*

**Müsəlman Alimləri Beynəlxalq Birliyinin sədri və baş katibindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlanıb.**

Məktubda deyilir:

"Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!

Müsəlman Alimləri Beynəlxalq Birliyi böyük qələbə xəbərini - Qarabağın Ana Vətənin qoynuna, əsl sahibinə qayıtması xəbərini böyük xoşbəxtlik və məmnunluq hissi ilə almışdır.

Biz bu xoş hadisə münasibətilə Sizi öz adımızdan, eləcə də özündə on minlərlə islam alimi və onlarla islam alimləri birliklərini cəmləşdirən Müsəlman Alimləri Beynəlxalq Birliyi təşkilatının Sədrliyi, Baş katibliyi və üzvləri adından təbrik edirik. Eyni zamanda, mücahid Azərbaycan xalqına, bütün alimlərə, möhtərəm dövlətinizə və rəşadətli Ordunuza salamlarımızı çatdırırıq.

Dünyanın hər yerində islam ümmətinin xidmətində olmaqda davam edən Müsəlman Alimləri Beynəlxalq Birliyi islam ümməti və bəşəriyyətə daha çox xidmət etmək naminə təşkilatımızla bərəkətli ölkəniz arasında əməkdaşlıq və tərəfdaşlığın dəstəklənməsinə ümid edir.

Birliyimiz Azərbaycan Respublikasını dəstəkləyən bəyanat və açıqlamalar vermiş, Azərbaycanın Qarabağı qaytarmaqla bağlı ədalətli haqqını dəstəkləmişdir. Bununla yanaşı, işğal edilmiş bütün ərazilərdən dərhal çəkilmək, Azərbaycanın haqqını etiraf etmək və Azərbaycanın öz torpağı üzərindəki hüquqlarını bərpa etmək üçün danışıqlara başlamaqla bağlı Ermənistana çağırışlar etmişik. Problemin köklü və son həlli, davamlı sülhün və əmin-amanlığın bərqərar olması məhz bundan keçir.

Sonda Uca Allahdan Zati-alinizə müvəffəqiyyətlər və uğurlar arzulayır, sevdiyi və razı qaldığı, əziz xalqınızın və islam ümmətinin xeyrinə olan işlərdə Sizə kömək göstərməsini diləyirik.

Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun!

**Hörmətlə,**
**Dr. Əhməd bin Əbdüssəlam Ər-Raysuni,**
**Müsəlman Alimləri Beynəlxalq Birliyinin sədri,**
**Dr. Əli Muhyiddin Əl-Qaradaği, Birliyin baş katibi**
**Qətər Dövləti, Doha şəhəri".**

### *"Rusiya Azərbaycanlılarının Regionlararası Assosiasiyası"nın Məşvərət Şurası Prezident İlham Əliyevə məktub göndərib*

**"Rusiya Azərbaycanlılarının Regionlararası Assosiasiyası"nın Məşvərət Şurası Prezident İlham Əliyevə məktub göndərib.**

Məktubda deyilir: "Hörmətli cənab Prezident. 2020-ci il 10 noyabr Azərbaycan tarixinə Böyük Qələbə günü kimi daxil oldu. Rusiya Federasiyasının bütün regionlarında yaşayan azərbaycanlılar bu şanlı Qələbəni və əzəli, tarixi Azərbaycan torpaqlarının işğaldan azad olunmasını bayram edirlər.

Bu şanlı Qələbəyə dahi ümummilli liderimiz Heydər Əliyevin layiqli varisi kimi Sizin müdrik, uzaqgörən siyasətiniz, böyük zəhmətiniz, iradə və qətiyyətiniz sayəsində nail olundu.

Ötən 30 il ərzində münaqişənin sülh yolu ilə nizama salınması üzrə danışıqlar prosesində iştirak etməyimiz bizim sülh tərəfdarı olduğumuzun əyani sübutudur. Zəbt edilmiş bütün Azərbaycan ərazilərindən işğalçıların dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistan 27 il məhəl qoymamışdı. Lakin Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı şanlı və rəşadətli Ordumuzu məcbur etdi ki, işğal olunmuş torpaqlarımızı öz qüvvəmizlə, hərbi yolla azad etsin. Sizin komandanlığınız altında Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində Dağlıq Qarabağa bitişik bir çox əraziləri, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhərini azad etdi.

"Rusiya Azərbaycanlılarının Regionlararası Assosiasiyası"nın Məşvərət Şurası adından parlaq Qələbəyə görə, həmçinin Azərbaycanın Prezidenti vəzifəsində apardığınız xarici siyasətə görə Sizə səmimi minnətdarlığımızı bildiririk.

Biz hamımız tarixi Azərbaycan torpaqlarını işğaldan fədakarlıqla azad etmiş igid oğullarımız və şəhidlərimiz qarşısında baş əyirik. Şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaqlar. Biz onların igidliyini heç zaman unutmayacağıq!

Bu müharibə Azərbaycan xalqının iradəsini və öz Ali Baş Komandanı ətrafında sıx birləşdiyini nümayiş etdirdi. Tarixi ədalət zəfər çaldı və Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıtdı.

Yaşasın Azərbaycan!"

# 44 GÜNLÜK MÜHARİBƏ

## Onun qəhrəmanı Sərkərdəmizdir

**Azərbaycan xalqının tarixinə şəhid qanıyla yazılan 27 sentyabr 2020-ci il həm də bizi böyük Qələbəyə aparan yolun başlanğıcı oldu. Həmin gün Ali Baş Komandanın əmriylə əks hücuma keçən Azərbaycan Ordusu düşmənin atəş nöqtələrini susduran müzəffər ordumuz həm də 30 illik həsrətimizin sona çatdığını bizə bəyan etdi. Əslində Azərbaycan əsgərinin bu hünəri həm də düşmənin özünəvurğunluğuna, ordusunun "yenilməz" hesab etməsinə nöqtə qoydu. Hər kəs gördü və şahidi oldu ki, həmin o "yenilməz" ordu nə qədər miskin və pərakəndə imiş.**

Biz bir vətəndaş olaraq bu müharibəni iki mənbədən izləmək imkanı qazandıq. Onların birincisi hər bir müraciətində, hər bir tvit yazısında bizi ruhlandıran, bizim arzularımıza qol-qanad verən, sozalmış ümidimizi pardaxlayan Ali Baş Komandanımız cənab İlham Əliyev, ikinci mənbə isə Müdafiə Nazirliyinin mətbuat xidməti idi. Aldığımız informasiyalar ordumuzun qəhrəmanlıq səlnaməsinin şahidinə çevrilməyimizə geniş imkan yaratdı.

Biz bu xəbərlərin işığında hər gün təkcə xəritə qarşısında yox, həm də yaddaşımızın önündə kəndbəkənd irəliləyir, Şuşaya yaxınlaşırdıq. Bircə faktı qeyd edim ki, Azərbaycan prezidenti cənab İlham Əliyevin xalqa etdiyi müraciətlərin hər bir sözü sıravi vətəndaşdaşdan tutmuş aydınlarımıza, səlahiyyət sahiblərimizə qədər hər kəsin dilinin əzbəri olmuşdu. Xüsusilə onun erməni ordusuyla bağlı, Ermənistanın baş naziriylə bağlı söylədiyi fikirlər bizə sevincin bütün çalarlarını ifadə edirdi, yaşadırdı. Açıqca görürdük ki, Ordumuz düşməni iti qovan kimi qovur. Ermənistanın baş naziri, eləcə də qondarma Dağlıq Qarabağ Respublikasının özündən prezidenti qaçıb gizlənməyə siçan yuvası axtarır. Çünki bu gəlmələr bu torpağı zəhərlədiyi üçün rədd olub, gorbagor olub getməli idilər. Bax, elə belə də oldu! 44 gün çəkən müharibə zamanı ordumuz özünün tam və qəti qələbəsini təmin etməklə Ermənistanı kapitulyasiyaya məcbur etdi. Nəticədə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər yağı düşməndən təmizləndi. Həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalandı. Özü də o Qələbə bayraqları sancılan ərazilərin yollarında, küçə və meydanlarında məhv edilmiş düşmənin çoxlu sayda döyüş texnikası, silah-sursatı, canlı qüvvəsi tökülüb qaldı. Demək olar ki, Ermənistan ordusu darmadağın edildi. Qonşu ölkələrin medialarının da qeyd etdiyi kimi, artıq Ermənistan ordusu müqavimət qabiliyyətini itirmiş, vahid komandanlığı olmayan başıpozuq bir dəstəyə çevrildi. Bu dəstə də əraziləri tərk edərkən öz vəhşi xislətini büruzə verməyi unutmadı. Onlar evlərimizi, meşələrimizi, ərazidə olan malqaranı, sosial obyektləri yandırmaqla, məhv etməklə kimliklərini dünyaya göstərdilər. Bu kadrları izləyən hər kəs bir daha əmin oldu ki, ermənilər əslində sivilizasiya görməmiş barbarlardı.Bəli, Azərbaycan Ordusu 30 il yuxularımızın, xəyallarımızın fövqündə olan Şuşanı azad etdi. Şuşa şəhərinin azad edildiyi həmin gün ordumuz 70 kəndimizi, 8 strateji yüksəkliyimizi də düşməndən geri aldı. Bu döyüşdə ordumuzun göstərdiyi qəhrəmanlıq, əsgərlərimizin göstərdiyi cəngavərlik əsl nağılların, dastanların, filmlərin süjetlərini bizə xatırlatdı. Düşmən də, bölgədə olan müxtəlif ölkələrin media nümayəndələri də əsgərlərimizin Şuşadakı heyrətamiz qəhrəmanlığını sözlə ifadə etməkdə çətinlik çəkdilər. Onlar Azərbaycan oğullarının Şuşada necə döyüşdüklərini ifadə etmək üçün bircə kəlmə işlədirdilər - bu qəhrəmanlıq fantastika idi!





Həqiqətən də Şuşanın küçələrində, girişində tökülüb qalmış erməni əsgərlərinin meyitləri bizim qəhrəmanlarımızın torpaq üçün, vətən üçün necə və nələrdən keçdiklərini göstərən bir detaldır. Bu detal həm də bütövlükdə ordumuzun, bu ordunun aid olduğu xalqın, həm də onun Sərkərdəsinin nə qədər mətin və qətiyyətli olduğunu dünyaya göstərdi. Düşmən də, elə dost da gördü ki, Azərbaycan əsgəri yenilməzdir. Məhz bu yenilməzlik biyabırçı şəkildə qaçıb gizlənən Ermənistan rəhbərliyinin, onların ordu komandanlığının xislətini açıb göstərdi. Bu gün də İrəvanda baş verənlər həmin xisləti bir daha sərgiləyir. Belə ki, Ermənistanın daxilindəki biyabırçı mənzərə, hazırkı gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, qarşıdurmalar, parlamentə hücumlar bu respublikanın sahibsizliyindən xəbər verir. Əgər biz bir paralellik aparsaq, onda görərik ki, Azərbaycan xalqının 10 noyabrdakı bayram atəşfəşanlığı, eləcə də Ali Baş Komandanımız İlham Əliyevin fəxrlə imzaladığı bəyənnamə bizim həm mənəvi üstünlüyümüzü, həm xalq olaraq yumruq kimi birləşməyimizi, həm də hər kəsin öz prezidentinə sevgi və sayğı ilə yanaşmasının göstəricisidir. Deməli, düşmən məkrli olduğu kimi, həm də mənən çox cılız və dayaz xislətə, əxlaqa malikdir. Ona görə də məğlubiyyətini də nadanlar kimi qarşılayır, nadanlar kimi həzm edir.

30 illik zaman tarixi bizim əxlaqımıza, mənəviyyatımıza heç bir kölgə salmadı. Biz xalq olaraq dözdük, səbr etdik və komandanımızın qəbul edəcəyi qərarı gözlədik. Həmin 30 ildə Ermənistanla aparılan danışıqlar, Minsk qrupunun Ermənistana havadarlığı, orada aparılan silahlanmaya göz yumması, böyük dövlətlərin susqunluğu, beynəlxalq təşkilatların laqeydliyi, bir sözlə, bütün bu baş verənlərə etinasızlıq bizi bir xalq olaraq daha da sıx birləşdirdi. İndi həmin o danışıqlar da, həmsədrlərin mənasız bəyanatları da tarixin arxivinə atılıbdır. Üstəlik, Azərbaycanın həmin danışıqlar zamanı təklif etdiyi problemin həll edilməsi ilə bağlı variant da öz əhəmiyyətini itirdi. Çünki ordumuz Şuşaya Qələbə bayrağını taxdı.

**Bu bayraqla Dağlıq Qarabağın muxtar vilayət statusu da ləğv olundu. Azərbaycan ərazilərində ikinci erməni dövlətini yaratmaq məkrli planı da bir kağız parçası kimi cırılıb atıldı. Deməli, düşmən öz hiyləgərliyinin, üstəlik, həm də nadanlığının girovu kimi diz çökdü. Biz beynəlxalq təşkilatların, eləcə də ATƏT-in Minsk qrupunun bu uzun illər ərzində həll etmədiyi problemi 44 günə həll etdik. Və beləliklə də sentyabr ayının 27-də başlanan Böyük Vətən Müharibəmiz Qələbəylə başa çatdı. Və hər kəs gördü ki, Qarabağ Azərbaycandır!**

**Əbülfət MƏDƏTOĞLU**
**"Ədalət" qəzetinin baş redaktorunun birinci müavini, Əməkdar jurnalist**

# *Ermənistan vaxt istədi*

## Kəlbəcər noyabrın 25-də təhvil veriləcək

**Noyabrın 15-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov və Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev birgə brifinq keçiriblər.**




Brifinqdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 10-da imzaladığı birgə bəyanatın icrası istiqamətində aparılan işlər barədə məlumat verən H. Hacıyev bildirib ki, Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib: "Bəyanatın tələblərindən biri Kəlbəcərin noyabrın 15-dək təhvil verilməsi idi. Lakin Ermənistan tərəfi Rusiya vasitəsilə bu vaxtın uzadılması üçün müraciət edib. Hava şəraiti çətinləşir, o istiqamətdən yalnız bir yol var və yolun ötürücülük qabiliyyəti aşağıdır. Azərbaycan bunu nəzərə alaraq, humanistlik nümayiş etdirib və Kəlbəcərin noyabrın 25-dək təhvil verilməsinə razılıq verib. Öhdəliklər qüvvədə qalır, vaxtın uzadılması ilə bağlı xüsusi bəyanat imzalanmasına ehtiyac yoxdur".

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, noyabrın 20-də Ağdamın, dekabrın 1-dək isə Laçının təhvil verilməsi nəzərdə tutulur.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycanın Kəlbəcər rayonunda qeyri-qanuni məskunlaşmanın nəticələri aradan qaldırılmalıdır. BMT Təhlükəsizlik Şurasının da Kəlbəcərlə bağlı xüsusi qətnaməsi var. Kəlbəcərdə mülki əhalinin məskunlaşması tamamilə qanunsuz xarakter daşıyır. Ona görə orada olan hər hansı bir mülkiyyətin heç bir hüquqi qüvvəsi yoxdur.

Ərazini tərk edən ermənilər Kəlbəcərdəki mülki obyektləri yandırır. Və bu, xarici medianın görüntülərində də əksini tapır - deyən Prezidentin köməkçisi bildirib ki, ətraf mühitə vurulan zərərin, ekoloji terrorun qarşısı alınmalıdır. Son məqamda da bu ərazilərin işğaldan azad edilməsi prosesində maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir: "Ağdamda Tiqranakert adlandırdıqları ərazidə qanunsuz arxeoloji qazıntılar aparırdılar. Bu qazıntılar zamanı əldə edilənlərin Ermənistana aparılması cəhdləri də var. Bu, beynəlxalq qanunların pozulmasıdır. Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni irsi talan edən də Ermənistan olub. Biz işğal olunmuş ərazilərdə maddi mədəniyyət abidələrinə, xüsusən məscidlərinə vurulan zərərləri görürük, hətta məscidlərdə donuzlar saxlanılıb. Daha ətraflı araşdırmalardan sonra Ermənistanın barbar əməllərinin nəticələri bir daha özünü büruzə verəcək."

Azərbaycan Ermənistan silahlı qüvvələrinin və mülki əhalinin işğal edilmiş ərazilərimizi təhvil verməsi prosesini izləyir- deyən H.Hacıyevin sözlərinə görə, Azərbaycanın malik olduğu texnoloji imkanlar da tətbiq olunaraq, Ermənistan Silahlı Qüvvəlrinin döyüş mövqelərindən çəkilməsi izlənilir ki, öhdəliklər vaxtında icra edilmiş olsun.

### *"Azərbaycan Ordusu hərəkət etmək üçün tam hazır vəziyyətdədir"*

Öz növbəsində general-mayor Hüseyn Mahmudov bildirib ki, Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmış bəyanata əsasən planlaşdırılan Kəlbəcərin təhvil verilməsinə paralel olaraq, oraya yerləşdiriləcək Azərbaycan Ordusunun hissələri və qüvvələri rayon ərazisinə hərəkət etmək üçün tam hazır vəziyyətdədir. Azərbaycan Ordusunun mühəndis qoşunları tərəfindən Kəlbəcərə bitişik olan və bu günədək Ordumuzun nəzarətindəki ərazilər minalardan təmizlənib.

Kəlbəcər rayonunun ərazisinə və əvvəlcədən müəyyənləşdirilmiş post və məntəqələrə hərəkət əsasən iki istiqamətdən - Göygöl və Daşkəsəndən həyata keçiriləcək. Kəlbəcərə daxil olacaq qüvvələrimiz, ilk növbədə, Azərbaycan-Ermənistan dövlət sərhədi və Qarabağ ərazisində sülhməramlılar tərəfindən yaradılmış nəzarət məntəqələri boyunca yerləşdiriləcək.

Hüseyn Mahmudov vurğulayıb ki, Azərbaycan Müdafiə Nazirliyi yüksək texnologiyaya malikdir və biz prosesi diqqətlə izləyirik. Heç bir təxribata yol verilmir. Brifinqdə göstərilən videodan göründüyü kimi, bir neçə kilometr uzunluğunda avtomobil karvanları hərəkət edir.

Yol çox dar olduğu üçün bu proses ləngiyir. Əsas məqsədimiz prosesi diqqətlə izləmək və yaranmış vəziyyət barədə tam dəqiq məlumatı ictimaiyyətə çatdırmaqdır.

O bildirib ki, ermənilər işğal altındakı əraziləri tərk edərkən binaları, meşələri yandırır, öz postlarını dağıdır. Bu, bir daha onların əsl iç üzünü dünya ictimaiyyətinə göstərir. Biz bu proseslərə nəzarət edirik.

**Xatırladaq ki, üçtərəfli razılaşmaya görə ermənilər Kəlbəcəri noyabrın 15-i boşaltmalı idilər.**

**Nicat Novruzoğlu**

### *Yevlaxdan Xankəndinə dəmir yolu çəkilə bilər*




**İşğaldan azad olunmuş rayonlarımızda vaxtilə 23 dəmiryolu stansiyası var idi. Torpaqlarımız ermənilər tərəfindən işğal edilməmişdən öncə iki istiqamətdə - Cənub istiqamətində Füzulidən Cəbrayıl, Zəngilan istiqamətində, Qərb istiqamətində Yevlax, Bərdə, Köçərli, Təzəkənd, Ağdam, Əsgəran, Xocalı, Xankəndi istiqamətində dəmiryolu xətti olub.**

Bunu Azvision.az -a açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin İnfrastruktur departamentinin rəsi müavini, hərəkət xidmətinin rəisi Elçin Məmmədov deyib. Onun sözlərinə görə, həmin istiqamətlərdə dəmiryolu xətlərinin bərpa edilməsi nəzərdə tutulur. "Hələ layihə yoxdur. Bu, sadəcə fikirdir ki, işğaldan azad olunmuş torpaqlardakı əvvəlki dəmiryolu xətləri bərpa edilsin. Layihənin reallaşması üçün ilk növbədə həmin ərazilərdə həyat təhlükəsizliyi təmin edilməlidir. Ərazilər minalardan təmizlənməlidir. Bundan sonra ərazilərdə vaxtilə mövcud olan Yevlax-Xankəndi və Füzuli-Zəngilan dəmiryolları xətlərinin bərpası nəzərdə tutulur".

E.Məmmədov bildirib ki, bunun üçün öncə relyef, infrastrukturla tanış olmaq lazımdır: "Orada torpaq yatağı, vaxtilə mövcud olan dəmiryolu xətləri qalıbmı, yoxsa ermənilər söküb aparıb? Bunlar hamısı öyrənilməlidir. Köhnə marşrut bərpa edilə bilərmi, yeni istiqamətdə olacaq? Bütün bunlar təhlil edilməlidir, daha sonra layihə hazırlana bilər".

### *Moldovanın yeni prezidenti Maya Sandu*



**Moldavanın eks baş naziri, "Hərəkat və həmrəylik" partiyasının lideri Maya Sandu prezidemt seçkilərinin ikinci turunda 57, 75 faiz səslə qalib gəlib. Bu barədə respublikanın Mərkəzi Seçki Komissiyası məlumat verib.**

Bazar günü Moldovada prezident seçkilərinin ikinci turu keçirilib. Vətəndaşlar növbəti 4 il müddətinə ölkə başçısını seçiblər. İkinci turda hazırki prezident İqor Dodon və Maya Sandu mübarizə aparıblar. Moldova MSK-sı yoxlanılan 100 faiz protokolların nəticələrinə görə Sandu seçicilərin 57,75 faizinin, Dodon isə 42,25 faizinin səsini qazandığını elan edib. Moldova qanunvericiliyinə görə seçicilərin yarısından çoxunun səsini qazanan namizəd qalib hesab olunur. Seçkilərdə qalib gələn Sandu yeni prezident kimi ilk dəfə telefonla Rumınuya Respublikasının prezidenti Klaus Yoxannislə danışıb. O, iki ölkə arasında əlaqələrin dahada möhkəmləndirilməsinə çalışacağını bildirib.

**Rüstəm Hacıyev**

## Məcburi köçkünlərin mütləq əksəriyyəti öz doğma torpaqlarına qayıtmaq əzmindədir



**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun vətən torpaqlarını işğaldan azad etməsi, otuz ilə yaxındır didərginlik həyatı yaşayan məcburi köçkünlərin doğma yurda qaytarılmasına imkan yaradıb. Bununla əlaqədar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynovun məcburi köçkünlərin öz torpaqlarına könüllülük əsasında qaytarılacağı barədə söylədiyi fikir yanlış anlaşılıb və ictimai müzakirəyə səbəb olub.**

Dövlət Komitəsindən Adalet.az-a verilən məlumata görə, halbuki, açıqlamada məcburi köçkün soydaşlarımızın mütləq əksəriyyətinin öz doğma torpaqlarına qayıtmaq əzmində olduğu vurğulanaraq, onların təhlükəsiz və ləyaqətli şəkildə qayıdışının məcburi köçkünlərin özləri tərəfindən arzu olunan yeganə seçim olduğu diqqətə çatdırılıb:

"Dövlətimizin başçısının dəfələrlə bəyan etdiyi kimi, məcburi köçkünlərin öz doğma torpaqlarına, əsrlərboyu xalqımızın yaşadığı ərazilərə geri qaytarılması təcavüzkar və işğalçı Ermənistana qarşı aparılan mübarizənin və əldə olunan möhtəşəm qələbənin əsas məqsədlərindəndir. Məhz buna görə də məcburi köçkünlər öz doğma yurdlarına qayıtmaq istəyirlər və onlar bunu ölkə rəhbərliyinə, eləcə də Dövlət Komitəsinə son dövrlərdə yüzlərlə edilən müraciətlərində nəinki qayıtmaq, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işlərində fəal iştirak etmək əzmində olduqlarını daim bildirirlər. Hazırda məcburi köçkünlər respublikamızın ərazisində müxtəlif yerlərdə müvəqqəti məskunlaşıblar. O cümlədən 300 mindən artıq məcburi köçkün onlar üçün salınmış qəsəbələrdə xüsusi təyinatlı dövlət mənzil fonduna məxsus yaşayış sahələrində yerləşdirilib. Prezident İlham Əliyev bu günlərdə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşərkən deyib:

**"Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz. Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq".**

**Xalqımızın qəhrəman övladlarının qanı bahasına işğaldan azad edilmiş torpaqlara qayıtmaq, bu müqəddəs torpaqları dirçəltmək, canlandırmaq, o yerlərdə yeni evlər tikərək, təsərrüfat yaradaraq daimi məskunlaşmaq məcburi köçkün həmvətənlərimizin mənəvi borcu, vətənə və ümumxalq dəyərlərinə sadiqliyinin təcəssümü kimi dəyərləndirilməlidir".**

**Sübhan**

## *Erməni təxribatı nəticəsində ölən mülki şəxslərin sayı 94-ə çatdı*

***Erməni təxribatı nəticəsində ölən və yaralanan mülki vətəndaşların sayı açıqlanıb.***

***Baş Prokurorluğun mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 94 mülki şəxs həlak olub, 414 nəfər yaralanıb.***

***Bundan başqa, 512 mülki obyekt, 120 hündürmərtəbəli yaşayış binası və 3410 yaşayış evi yararsız hala düşüb.***

# Hədəf olan yurdlarımız: 2 gündə 675 mərmi düşən Mahrızlı kəndindən REPORTAJ

**30 ilin yekunu! 30 ilin həsrəti! 30 ilin sıxılıb qalmış sevinci! Azərbaycan xalqı, Azərbaycan dövləti bu gün 200 ildir yaşamadığı bir sevinci yaşayır! Bəli, Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycan Ordusunun sentyabrın 27-dən əks-hücum əməliyyatı ilə başlanan Vətən müharibəsi və ya İkinci Qarabağ müharibəsi noyabrın 10-da qələbə ilə başa çatdı. Azərbaycanın bu qələbəsi ölkədə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir. Azərbaycan xalıq və Azərbaycan Ordusu birlik oldu, həmrəylik göstərdi, qalib oldu.**

Bu gün ağır müharibə dövrünü başa çatdırmış ölkəmiz erməni



xislətinin vurduğu ziyanı müzakirə edir. Ordumuza gücü çatmayan ermənilər dinc əhalinin yaşadığı əraziləri, insanların sıx məskunlaşdığı yaşayış məntəqələrini iri çaplı silahlardan, ağır artilleriyalardan raket atəşinə tutaraq dinc insan itkisinə və şəxsi təsərrüfatlara böyük məbləğdə ziyan vurub. Bu müddət ərzində ermənilərin törətdiyi təxribatlar nəticəsində 93 dinc sakin həlak olub, 407 dinc sakin yaralanıb. Həmçinin 3326 yaşayış evi, 504 mülki obyekt, 120 çoxmənzilli yaşayış evi yararsız hala düşüb.

### *Ağdamın bombardman olan Mahrızlı kəndi*

***Təbii ki, müharibənin ən qaynar nöqtələrindən biri də Ağdam ərazisidi. Xüsusən, 27 ildir ki, ordumuzun gücünə-qüdrətinə güvənərək təmas xəttində yağı düşməndən qorxmadan - çəkinmədən yaşayan, işləyən ağdamlılar bu dəfə də əsl cəsarət nümayiş etdirərək kəndindən, doğma evindən uzaqlaşmadı, çaxnaşma yaranmasına, düşmənin sevinməsinə şərait***



***yaratmadı. Belə kəndlərimizdən biri olan Mahrızlının əvvəllər döyüş mövqeyi ilə arasındakı məsafə 2 km -dən də az olub.***

Əvvəlcə qeyd edim ki, rəsmi məlumatlara əsasən, Mahrızlı Ağdam rayonu ərazisindəki Zəngişalıkəndiylə bir sayılır. Kəndin təxminən 1800 sakini var. Azərbaycanlılardan ibarət olan kənd əhalisi qədimdən əkinçilik, maldarlıq və toxuculuqla məşğul olublar. Kəndin ərazisində eramızdan əvvələ aid kurqanlar tapılmişdır ki, bu da Mahrızlının ta qədimdən yaşayiş məskəni olduğunu sübut edir.

Sovet dönəminin məktəblilərinin yadında olar: Mahrızlının adı hələ SSRİ dövründə, bu kəndin 20 yaşlı gəncinin misli görünməmiş qəhrəmanlığı ilə dünyaya tanınıb.Beləki, 1967-ci il təvəllüdlü Mahrızlı kənd sakini Rahib Məmmədov qonşu Gürcüstan Respublikasında SSRİ Silahlı Qüvvələrinin tərkibində xidməti vəzifəsini yerinə yetirirdi. 1987-ci ildə Gürcüstanda baş verən təbii fəlakət nəticəsində Xobi rayonunun Çaladidi kəndi suyun altında qalır. Kəndin mülki sakinləri isə selin caynağında əsirə çevrilir. Həmin vaxt 20 yaşlı Rahib Məmmədov 28 nəfər gürcünün həyatını xilas edib. Təəssüf ki, son anda Rahib Məmmədov qarşıdakı körpüyə qalxmaq istəyərkən heyəti olduğu ”ZDM”-i sel itələyir. O, texnika ilə dəmir maneə arasında qaldığından ölümün caynağından xilas ola bilmir, qəhrəmancasına həlak olur.

***Bu gün Mahrızlı kənd orta məktəbi həmin əfsanəvi qəhrəman Rahib Məmmədovun adını daşıyır. Məktəb binasının yanında isə Rahib Məmmədovun adı verilmiş Döyüş Şöhrəti Muzeyi fəaliyyət göstərir. Məktəbin tarix müəllimi İntiqam Əsədov erməni terrorçularının dinc əhalini hədəfə almasından danışarkən həmin məktəbə də atılan mərmilərdən, vurulan ziyandan danışdı. Ağdərə ərazisindən atılan mərmilər nəticəsində 292 şagirdin təhsil aldığı, 35 müəllimin pedaqoji fəaliyyətlə məşğul olduğu Mahrızlı kənd tam orta məktəbi bərbad vəziyyətə düşüb.***

İntiqam müəllimlə birlikdə ən çox dağıntıya məruz qalmış evlərə və yardımçı tikililərə baş çəkdik. Həmsöhbətimiz kənd sakini I Qarabağ müharibəsi veteranı Qalib Gərayevin şəxsi evi demək olar ki, darmadağın olub. Q. Gərayev- söylədi ki, 8 noyabrda 5 nəfər ailə üzvümlə birlikdə evimdən xeyli aralıda olan şəxsi təsərrüfatımla məşğul idik. ”Kəndə mərmi düşəndə elə bil ürəyimə damdı ki, dağılan bizim evdi. Hissim məni yanıltmamışdı. Baxmayaraq ki, bu evi minbir əziyyətlə tikmişdim, başa gətirmişdim, amma qətiyyən kədərlənmədim. Əsas o idi ki, ətrafdakı evlərə də zərər dəysədə insan itkisi olmamışdı. Vallah, bu gün sabah bundan da yaxşı ev tikəcəm!Quracam!Min evim olsun, mini də qurban olsun əsgərlərimizə! Təki əsgərlərimiz sağ-salamat valideynlərinə qovuşsun!”

**-Siz hərbçisiniz, sizcə, belə böyük dağıntıya səbəb hansı artilleriya qurğusu ola bilər?**

- ANAMA (Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi) gəlib mərmiləri təmizlədi və bildirdi ki, bu mərmilər 152 mm-lik (OF-45) top mərmisidir.





### *2 gün ərzində 675 mərmi düşdü...*

Mahrızlı Ərazi Bələdiyyə sədri Camal Əsədovla söhbət əsnasında o dedi ki, ermənistan silahlı qüvvələrinin namərdliyinə şahid olduğumuz ilk dəfə deyil:” 1990-cı ildən bu günə qədər ermənilərin qətlə yetirdiyi uşaqların, qadınların, qocaların nəşi gözlərimiz önündən getməyib. Ermənilər hər zaman belə olub. Torpaqlarımıza köçürüldükləri zamandan türk qanına.

İnsan ölümünə susayıblar! Təsəvvür edin, bizim kəndə 2 gün ərzində 675 mərmi düşdü. 15-ə qədər ev tamamilə ev dağılaraq yararsız vəziyyətə düşüb. 50-yə yaxın ev, obyekt və yardımçı tikili qismən zərər çəkib. Ordumuzun başına dönüm, yaxşı verdilər bu qaniçənlərin cavabını...

Əli İlyaszadə hələ avqust ayında Səfərbərlikvə Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək qeydiyyata düşmüşdü. O, deyir ki, hər gün çağırış vərəqəsini gözlədim. Mən də əsgərlərimiz kimi tarix yazmaq arzusundaydım. Heyf, yaşım düşsə də müharibəyə çağrılmadım. Amma hesab edirəm ki, mübarizə tikinti meydanlarında başlayacaq, bu qədər tikilib-qurulası yurdlarımız var, bunları mütləq biz gənclər inkişaf etdirməliyik, tikib-qurmalıyıq!

Ədalət Qaraşov söhbətinə 2016 cı il Aprel döyüşlərindən başladı:” Əslində ermənilər axmaq adamlardılar. Soruşun niyə? Gərək onlar 4 günlük müharibədən sonra kirimişcə bu torpaqlardan uzaqlaşaydılar. Uzaqlaşmadılar ki..? Di, cəsarətləri çatır, qaçmasınlar. Sağ olsun cənab Prezidenti, var olsun xalqımız və ordumuz !İti qovan kimi qovdular erməniləri... *(gülür)*

Sonda Mahrızlı camahatının Ali Baş Komandana və Ordumuza təşəkkürlərini, minnətdarlığını dinlədik.

Mahrızlılar xahiş etdilər ki, qəzetiniz vasitəsilə bizim arzu-diləklərimizi, sevgimizi, ehtiramımızı ünvana çatdırasınız! Məmnuniyyətlə -deyib, sağollaşıb oradan ayrılıram!

**Yoluma düzələndə isə özözümə söz verdim: Yaxın günlərdə başlayacaq tikinti-quruculuq işlərində yenidən bir reportaj hazırlamaq boynumun borcu olsun!**

**Əntiqə Rəşid**
**”Ədalət” qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

# Zaqatalalılar həm ön, həm də arxa cəbhədə çox fəaldırlar

**Zaqatala Rayon İcra Hakimiyyəti Başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini Vəfa xanım Süleymanova: ”Zaqatala rayonunun hər vətənpərvər sakini Ali Baş Komandanımızın ətrafında sıx birləşərək Vətənimizin bütövlüyü uğrunda əzmlə mübarizəyə qoşulub”.**

Bəli, bu günlər Azərbaycan haqq savaşı, haqq mübarizəsi aparır, Şanlı Ordumuz beynəlxalq hüquq və prinsiplərə əsaslanaraq Ermənistan tərəfindən xaincəsinə işğal olunan torpaqlarımızı azad edir.

Azərbaycan Prezident, Ali Baş Komandan İlham Əliyevin haqlı əmrindən sonra Ordumuzun düşmənə sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxışmındab böyük itkilər verən erməni hərbiçiləri işğal etdikləri torpaqlarımızdan döyüş mövqelərimizi qoyub, qaçmaqdadırlar. Belə ki, haqq mübarizəsini aparan Azrəbaycan Ordusu gücü, qüdrəti hesabına cəbhənin bütün istiqamətlərində mövqeyini gündən-günə möhkəmləndirir.

### *Bu günlər*

***Azərbaycanımızın hər vətəndaşımızın bir amalı var: ”Bir yumruq kimi birləşərək, Odlar yurdumuzun - doğma Vətənimizin azadlığı uğrunda mücadilə edən - fədakar Ordumuza dəstək olaq, dayaq olaq, maddi və mənəvi köməklik göstərək, hər şey cəbhə üçün, hər şey qələbə üçün devizi ilə mübarizənin önündə gedək”.***

Şübhəsiz ki, bu gün hər birimizin qəlbi Qarabağda gedən Vətən müharibəsində Şanlı Ordumuzun qələbə zəfəri ilə döyünür.

Azərbaycanımızın bütün bölgələrində olduğu kimi, qızılgüllər diyarı kimi tanınan Zaqatala rayonunun hər bir sakini də müharibə əhval-ruhiyyəsindədir, torpaqlarımızın azad edilməsi uğrunda ölüm-dirim mübarizəsi aparan Vətənimizin mərd-igid oğullarına hər tərəfli dəstək olan Zaqatalalılar həm ön cəbhədə, həm də arxa cəbhədə xüsusi fəallıq göstərirlər.

### *Birinci Qarabağ savaşında*

***olduğu kimi 27 sentybar 2020 -ci il tarixində mənfur ermənilərin növbəti təxribatından sonra, milliyyətindən, mənsubiyyətindən asılı olmayaraq, yüzlərlə Azərbaycan gənci Vətənimizin müdafiəsinə qalxdı və ön cəbhəyə yola düşdülər. Torpaqlarımızı işğalçı erməni düşmənlərindən azad etmək üçün son damla qanınadək mübarizə aparmaq üçün.***

”Hər bir kəs, Azərbaycan vətəndşaı, bu günlər mübariz ruhda köklənib.

Birinci Qarabağ savaşında olduğu kimi Ali Baş Komandanın əmrindən sonra çoxmillətli Zaqatalanın da onlarla gənc vətənpərvəri orduya yola düşüb, düşmənə qarşı ön cəbhədə vuruşurlar.




Hal-hazırda Zaqatalada yaşayan Azərbaycanlılarla yanaşı, saxurlar, avarlar, yengiloylar və digər millətlərin neçə-neçə gənci, həm səfərbərlik, həm də könüllü olaraq Milli Ordumuza köməyə gediblər. Eyni zamanda Zaqatala rayonundan onlarla zabit və hərbi qulluqçularımız həqiqi hərbi xidmətə müharibənin ən qaynar nöqtələrində vicdanla xidmət edirlər” -deyə bizimlə söhbət edən Zaqatala Rayon İcra Hakimiyyəti Başçısının İctima-siyasi və humanitar məsələlər üzrə müavini Vəfa xaxnım Süleymanova daha sonra dedi:

”Ali Baş Komandan, Möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu mənfur düşməni torpaqlarımızdan qovur, şəhərlərimizi, kəndlərimizi, qəsəbələrimizi birbirinin ardınca işğalndan azad edirlər və üç rəngli bayrağımızı yurd yerlərimizdə dalğalandırırlar. Əlbəttə ki, Şanlı ordumuzun sıralarında düşmənə mərdliklə qan udduran Zaqatalalı gənclərin də amalı birdir - işğal altında olan torpaqlarımızı erməni düşmənlərindən hər qarışına kimi azad etmək, qorumaq, canları, qanları bahasına.

***Torpaq, əgər uğrunda ölən varsa Vətəndir!***

***Uğrunda canlar fəda verən Azərbaycanımızın Şanlı ordusu dönmədən torpaqlarımızı düşmən tapdaqlarından azad etmək üçün ölüm-dirim savaşı aparır.***

***Şübhəsiz ki, müharibə ölümsüz-itkisiz ötüşmür.***

Artıq, İkinci Qarabağ savaşında, Vətən müharibəsində də rayonumuzdan şəhid olan mərd döyüşçülərimiz də var. Onların say 28 nəfərdir. Sıralarında sıravi də, hərbiçi də, yüksək rütbəli zabit də var.

### *İlk şəhidimizi*

***28 sentyabr 2020 -ci il tarixində rayonun Yeni Suvagil kəndində torpağa tapşırdıq. Vətən uğrunda həlak olan ilk şəhidimiz - Elvin Azər oğlu Qədirov olub. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan hər bir igidimiz bizim övladımız, ciyər, paramızdır. Onların ruhu şad olsun, şəhidlik zirvəsinə ucalan hər bir Zaqatalalıya min alqış, onların yaxınlarına Allahdan səbr diləyirik. Xalqımız hər zaman ordumuza möhkəm arxa və dayaqdır. Ön cəbhədə olduğu kimi, arxa cəbhədə də hər bir Zaqatalalı çox fəallıq göstərir. Döyüşlərdə tarixi zəfərlər qazanan ordumuza həm mənəvi, həm də maddi dəstəyi ürəkdən, əsil vətənpərvərlik hissiyyatı ilə göstərirlər.***

Həm də ön cəbhədə döyüşən oğullarla fəxr edirlər. İkinci Vətən müharibəsi başlayandan hər bir Zaqatalalı yaşından asılı olmayaraq könüllülük prinsipi əsasında Orduya maddi yardım göstərməyə başlayıblar. Demək olar ki, hər gün Zaqataladan cəbhə bölgələrindəki Milli Ordunun hərbi hissələrinə yardımlar göndərilir. ”Rayon İcra Hakimiyyəti tərəfindən yaradılan qərarqaha, rayonun bütün təhsil və mədəniyyət ocaqlarından, dövlət orqanlarından, idarə-müəssisə, təşkilatların kollektivləri, fermerlər, sahibkarlar, ziyalılar və digər rayon sakinləri yüksək həvəslə müxtəlif formalarda hər cür yardımlar təqdim edirlər. Rayon Mədəniyyət Mərkəzində toplanan həmin yardımlar vaxtaşırı bizim iştirakımızla ön cəbhəyə yola salınır. Eyni zamanda Zaqatala rayon sakinləri demək olar ki, hər gün müxtəlif bankların rayon filiallarından Azərbaycan Silahlı Qüvvələrinin hesabına müxtəlif məbləğlərdə ianələr köçürür və ordumuzun maddi bazasının möhkəmləndirilməsinə yardımçı olurlar. Azərpoçtun Zaqatala rayonunun Mərkəzi filialından isə ”əsgərə məktub” kompaniyası da yüksək səviyyədə davam etdirilir. Çünki məkubda yazılan hər bir xoş söz Azərbaycan əsgərinin yüksək ruh yüksəkliyinə, xoş əhval-ruhiyyəsinə səbəb olur.

Söz yox ki, erməni vəhşilərinin bu insanlığa qənim kəsilən hərəkətləri xalqımızın qətiyyətini və inamını sarsıda bilmir. Bütöv Azərbaycan cəmiyyəti kimi Zaqatalalılarda bir yumruq kimi birləşərək tezliklə qələbəmizin təminatına dəstək olurlar. Şübhəsiz ki, biz haqq işimizi də haqq savaşında, xalqımızın sarsılmaz iradəsi, cəsarəti, əzmi sayəsində mütləq tarixi qələbə qazanacağıq. Hər bir Zaqatala sakinləri həmin günü səbirsizliklə gözləyir.

**Sizinlə fəxr edirik, Azərbyacan əsgəri.**

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

## “Qızı deyir ki, müharibə bitdi, amma atam gəlmədi, oğlu da o döyüşdə olanda dil açıb”



**Baş çavuş olan Mehdiyev Surxay Zülfü oğlu 1985-ci il dekabrın 7-də Ağdamın Xıdırlı kəndində anadan olub. Qarabağ uğrundakı döyüşlərdə o da xüsusi təyinatlı kimi iştirak edib. Murov dağının və digər rayonların alınmasında birbaşa xidməti olub. Onlarla əsgərimizin həyatını xilas edib. Döyüş yoldaşları bildirir ki, 3 gün torpağın altında qalıb kömək gözləyiblər. Lakin 3 gündən sonra xilas olunublar. Ağır yaralansa da yarası sağalmadan yenidən israrla döyüşə qatılıb və təəssüf ki, növbəti döyüşdə ən yaxın dostu, cəbhə yoldaşının həyatını xilas etmək istəyəndə şəhid olub. Surxayın həyat yoldaşı Vüsalə Mehdiyeva onunla sonuncu telefon danışığını belə xatırlayır:**

”Surxay baş çavuş olduğu üçün evdən çox, təlimlərdə olurdu. Son təlimlərdə 1 ya da 2 dəfə evə gəlməyə imkan tapmışdı.

Əks hücum başlamazdan əvvəl sentyabr ayının 21 də evə gəldi, 1 gün qalıb getdi. Sonuncu dəfə elə o gün görmüşük Surxayı. Müharibə başlayandan sonra cəbhəyə yollandı. Oktyab ayının 11-də, oğlumuzun 1 yaşı tamam olanda zəng etdi. Qısa danışıq oldu, təbrik etdi oğlunu. Hər dəfə zəng edəndə mən ağlayırdım, narahat idim. Mənə deyirdi ki, ağlama, möhkəm ol! Sonuncu dəfə isə oktyabrın 18-də səsini eşitmişik. Elə bir gün sonra oktyabr ayının 19-da şəhid olub. Nəşi neytral zonada qalıb, 4 gündən sonra cansız bədənini döyüş meydanından çıxarıblar” deyə şəhidimizin həyat yoldaşı bildirib.

Şəhidimizin Ayşə adlı 5 yaşlı qızı və Zülfü adlı 1 yaşlı oğlu da var:

”Uşaqlar balaca da olsa dərk edirlər. Ayşə soruşur ki, ana, müharibə də bitdi, atam gəlmədi. İnanır ki, bir gün atası gələcək. Oğlum da Surxay müharibəyə gedəndən sonra dil açdı, ”ata gəl” deyirdi... İndi heç o sözü də demir.. Çünki atasını görmür” deyə şəhidin həyat yoldaşı bildirib.

Surxayın dayısı qızı Vüsalə Mustafayeva isə bildirir ki, qohumunun şəhid olması xəbərini ona Surxayın qardaşı çatdırıb:

”Sonuncu dəfə Surxayın döyüş yoldaşlarının yaralandığını eşidəndə onun üçün çox narahat olmuşduq. Hər saniyə gözümüz telefonda idi, zəng gözləyirdik ondan. Oktyabr ayının 24-ü mənə tanımadığım nömrədən zəng gəldi. Açdım gördüm Surxayın səsidir. Qışqırdım sevincimdən ki, Surxay sağsan bəs niyə yığmırsan bizi neçə müddətdir? Həmin an bir səs eşitdim.

**”Surxay deyil, mənəm Elmir, Surxay şəhid oldu”. (Elmir Surxayın balaca qardaşıdır. Səsləri hədsiz dərəcədə çox oxşayır). Həmin an məhv oldum. Sanki bütün dünya başıma çökdü. Nitqim qurudu, dondum qaldım. Kaş ki, həmin gün zəng edən Surxay olardı. Kaş ki, qələbə xəbərini o bizə çatdırardı. Amma əminəm ki, onun ruhu indi şaddır. Bütün Azərbaycanın fəxridir indi Surxay. Onun etdiyi qəhrəmanlıqları eşidəndə biz daha da fərəhlənirik. O öz qanı ilə şanlı vətən tarixini yazdı” deyə Vüsalə Mustafayeva Moderator.Az-a bildirib.**

**Əli Novruzəliyev**

## *"Virtual məktəb"də dərslərin təşkilinə yeni nəzarət mexanizmləri yaradılıb*



**”Virtual məktəb”də tədris və təlim-tərbiyə prosesinin düzgün təşkilinə nəzarət məqsədilə bir sıra imkanlar təqdim olunur.**

Təhsil Nazirliyindən Adalet.az-a verilən məlumata görə, portalda direktor və direktor müavinləri üçün rəhbərlik etdikləri təhsil müəssisəsi üzrə bütün sinifləri, siniflər üzrə aparılan bütün dərsləri izləmək imkanı var. Məsafədən təşkil olunmuş dərslərin keyfiyyətinin ölçülməsi, davamiyyətə nəzarət, icmallaşdırılmış məlumatların toplanılması və təhlili imkanları təqdim olunur. Həmçinin xüsusi yaradılmış qruplarda müəllimlərlə birgə pedaqoji şuralar və valideynlərlə iclaslar keçirmək mümkündür.

Bununla yanaşı, cari tədris ilində yerli təhsili idarəetmə orqanları üçün tabeliyində olan təhsil müəssisələrinin ”Virtual məktəb”də fəaliyyətlərinin təşkilinə nəzarət etmək məqsədilə yeni imkanlar təqdim edilib. Belə ki, rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) rəhbər heyətinə təqdim olunmuş istifadəçi adı və şifrə ilə ”Virtual məktəb”də təhsil müəssisələri üzrə statistik məlumatlar əldə etmək mümkündür.

**Qeyd edək ki, yeni nəzarət mexanizmi ümumi ölkə üzrə faiz göstəriciləri, ayrı-ayrılıqda təhsil müəssisələri üzrə qeydiyyatdan keçmiş müəllim, şagird sayı, siniflər üzrə şagirdlərin yaş qrupları, bölmələr üzrə statistik göstəricilərlə tanış olmaq və bu göstəricilər əsasında müvafiq təhlillər aparmaq imkanları təqdim edir.**

**Sübhan**

# GÖRÜNMƏYƏN DÜŞMƏN...

## Onunla savaşmaq daha çətindir

**... Hər bir insanın, hər bir dövlətin görünən və görünməyən düşməni var. Və o görünən düşmənlə savaş aparmaq, döyüşmək, mücadilə etmək o qədər də çətin deyil. Çətin odur ki, görünməyən düşmən ola və o da sənə sağdan, soldan hücum edərək yaxalaya. Bizim bir görünən düşmənimiz vardı: o da ermənilərdi!**

30 il torpaqlarımızı işğal edərək çox rahat şəkildə orda əyləşib kef eləyirdilər. Heç ağlına belə gəlməzdi ki, günlərin bir günündə azəri türkləri ayağa qalxacaq, onları Füzulidən, Cəbrayıldan, Hadrutdan, Zəngilandan, Qubadlıdan və Şuşadan silib-süpürüb atacaq. Onların ağlına gəlməyən başlarına gəldi. İndi də Tağı Əhmədovun sözü olmasın, burcudurlar ki, bizə 10 gün vaxt verin, 10 gündən sonra Kəlbəcərdən çıxacağıq. Bu zina nəslindən əmələ gəmiş və şeytana xidmət edən ermənilərə heç vaxt inanmaq olmaz. Ən azından ona görə ki, biz onların namrədliklərini görə-görə gəlmişik. 10 gün vaxt verdik, bəs eləmədi. İndi də 10 gün əlavə vaxt istəyiblər.

Təbii ki, biz də humanist dövlətik, bu vaxtı vermişik. Amma bu alçaqlar yüz bəhanə gətirərək bu vaxt ərzində Kəlbəcərin altını üstünə çevirir, evləri, meşələri yandırır, sanki qisas alırlar. Hansı ki, onlar Kəlbəcəri işğal edəndə bizimkilərə heç bir gün də vaxt verməmişdilər. Cəmi 10 saat imkan yaratmışdılar. Bu 10 saatda çıxan çıxdı, çıxmayanları isə ermənilər ya güllələdilər, ya girov götürdülər, ya da o insanlar itkin düşdülər. Həmin səhnəyə baxanda adamın tükləri biz-biz olur. Sözümüzün canı odur ki, sülhməramlı qüvvələr də ermənilərə havadarlıq etməməli, Kəlbəcərdəki azərbaycanlıların evlərini yandırmağa qoymamalı, meşələri, gözəl məkanları məhv etməyə şərait yaratmamalıdılar. Çox təəssüf ki, ermənilərin vəhşiliyinə sülhməramlı qüvvələr göz yumurlar.



Bu görünən düşməndi. İndi isə biz görünməyən düşmən barəsində danışmaq istəyirik. Həmin düşmən COVİD-19-dur. Yəni el dilində demiş olsaq, koronavirusdur. O koronavirus artıq dünyanı dizinin altına qoyub anasını ağladır. Hətta super dövlətlər belə bu xəstəliklə və virusla bacarmır. ABŞ-da bu virusa yoluxanların sayı 10 milyonu keçib. Ölənlər isə 300 mindən çoxdur. Deməli, dünya bu virusa qarşı mübarizədə birləşsə də, hələ də aciz durumdadır.

***Bu ilini əvvəllərindən ölkəmizdə yayılan bu virusa qarşı da yetərli mübarizə aparılır. Xüsusən yaz və yay mövsümündə həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində virusa yoluxanların sayı aşağı enmişdi, ölənlər azalmışdı. Öncə onu qeyd eləməliyik ki, ilk vaxtlar bu bəlaya qarşı çox ciddi mübarizə aparıldı. Hətta ictimai nəqliyyatda, avtobus və metroda ciddi rejim yaradıldı. Qaydalara əməl etməyənlər məsuliyyətə cəlb edildilər. Üstəlik də həm televiziya kanallarında, həm də KİV-də COVİD-19-la bağlı maarifləndirici söhbətlər təşkil edildi. İxtisaslaşmış xəstəxanalarla yanaşı, 10-dan çox modul tipli xəstəxanalar fəaliyyətə başladı.***

Ölkəmizdə sentyabırn 27-də Böyük Qarabağ Savaşına start verilməsi bu xəstəliyə qarşı mübarizədə müəyyən boşluqlar yaratdı. Təbii ki, belə bir durumda həm səhiyyə işçilərinin, həm də dövlətin gücü Qarabağ savaşına yönəlmişdi. Və biz 44 gündə 30 il erməni işğalında olan rayonlarımızı azad elədik, düşmən üzərində böyük Qələbə qazandıq.

Nazirlər Kabineti yanında Operativ Qərargah ciddi addımlar atsa da, çox təəssüf ki, virusa yoluxmaların sürətini aşağı endirə bilmir.

Artıq sentyabrın əvvəllərindən ölkəmizdə bu virusa yoluxanların sayı yüksələn xətlə inkişaf edir. Yay mövsümündə virusa yoluxma halı 600-ə çatanda aləm bir-birinə dəyirdi. Amma noyabrın 15-də COVİD-19-a ölkəmizdə yoluxanların sayı 2259 nəfər olub. Bu isə o deməkdir ki, həm Operativ Qərargahın, həm də TƏBİB-in həll edə bilmədiyi müəyyən problemlər mövcuddur. Və o mövcud problemləri aydındır ki, əlaqədar qurumlar daha yaxşı bilirlər.

Xəstəliyin artmasının bir çox səbəbləri var. Həmin səbəblərdən ən başlıcası əhalinin həkimlərin tövsiyəsinə, tapşırıqlarına əməl etməməsidir. Yəni onlar ictimai nəqliyyatda, kütləvi yerlərdə, market və ticarət mərkəzlərində bir çox halda tibbi maskalardan istifadə etmir, ara məsafəsi saxlamır, əllərini vaxtlı-vaxtında spirtlə dezinfeksiya etmir, yumur və digər sanitar qaydaları pozurlar. Bir çox halda, avtobus və kütləvi yerlərdə və yas məclislərində insanlar maskalarını tam taxmır, onu çənəsinə salır və bəzən də heç maskadan istifadə etmirlər. Bunun isə hansı fəsadlar verdiyini deməyə ehtiyac yoxdur.



***Xəstəliyin yayılmasının digər bir səbəbi isə şəhərin bütün avtobuslarındakı salonlarda sərnişinlərin həddindən çox sıx olması, ara məsafəsi saxlaya bilməməsi və bəzi hallarda insanların xəstə olduğu halda ictimai nəqliyyatdan istifadə etməsidir. İndi toy etməyə icazə vermirlər ki, kimsə koronavirusa yoluxa bilər. Toyda isə ən yaxşı halda 200-250 nəfər iştirak edir. Amma siz səhər-səhər gəlin, çox yox, metronun ”Xalqlar dostluğu” stansiyasından ”BakBus”un avtobusu olan iritutumlu M-1, M-2 avtobuslarına minin. Bu avtobuslarda o qədər basabas olur ki, adam ayağını qoymağa yer tapmır. Bir dəfə tənbəllik eləməyib iritutumlu avtobusun salonunda olan sərnişinləri saydım. Düz 250 nəfər idi. Üstəlik də pəncərələr bağlı idi. Hərdənbir sərnişinlər sürücüyə səslənirdi ki, kondisioneri işə sal, sərin hava vursun. Sürücü də bəzən onların dediyinə qulaq asırdı, bəzən də əhəmiyyət vermirdi. Belə bir şəraitdə hansı ara məsafəsinin saxlanılmasından danışmaq olar?***

Allaha and olsun ki, heç metroda belə basabaslar yaranmayıb. Ən yaxşı halda bir qatarda 40-50 nəfər sərnişin olardı. Cənablar, əgər avtobuslarda sərnişin sıxlığı aradan qaldırılmırsa və insanlar bir-birinin ”ağzının içinə” girirlərsə, onda hansı məsafədən danışmaq olar? Gəlin, özümüzü aldatmayaq. Bu cür sıxlıq və basabasda nəinki koronavirus, eləcə də digər yolxucu xəstəliklər çox asanlıqla yayıla bilir.

Yenə sözümüz Operativ Qərargahadır. Bu cür işlərlə koronavirusun qarşısını almaq mümkün olmayacaq.

Yəni ölkəmizdə belə bir mühitdə, belə bir şəraitdə koronavirusa yoluxma halları həndəsi silsiləylə yüksələcək. Noyabrın 15-də 2259 nəfər yoluxmuşdusa, dekabr, yanvar və fevral aylarında bu rəqəm bir qədər də arta bilər. Ya bu rəqəmlərdə şişirtmə var, ya da həqiqətən də vəziyyət belə kritikdisə, ciddi addımlar atılmalıdır. O ciddi addımların biri də ondan ibarətdir ki, metronun fəaliyyətinə icazə verilməlidir.

**Əks təqdirdə, avtobusda ayaq üstə duramağa yer tapmayan sərnişinlərin sıxlığı nəticəsində virusa yoluxma halları daha da çoxalacaq. Sadəcə olaraq, əlaqədar qurumlar tezliklə çıxış yolu tapmalı, virusa yoluxma hallarının aşağı endirilməsi üçün konkret addımlar atmalıdır. İnsanların sağlamlığı ilə heç bir vəzifəli şəxs oynamamalıdır. Çünki qabaqlayıcı tədbirlərin gerçəkləşdirilməsi birmənalı olaraq ən azından koronavirusa yoluxma hallarını minimuma endirə bilər.**

**Faiq QİSMƏTOĞLU**

## *Bəşər Əsədin ən yaxın adamı öldü*



**Suriyanın Xarici İşlər Naziri Valid el-Muallim bu gün 79 yaşında dünyasını dəyişdi. Onun uzun müddətdir ürək xəstəliyindən əziyyət çəkdiyi deyilir.**

**Muallim 10 illik qarşıdurmaları başladan Bəşər Əsədin barışcıl etirazlara sərt müdaxiləsinin ən böyük dəstəkçilərindən biri idi. 2006-cı ildə Xarici İşlər Naziri təyin olunan Muallim eyni zamanda baş nazir köməkçisi olaraq da vəzifədə idi. Onun yerinə kimin vəzifəyə gələcəyi açıqlanmasa da, Muallimin köməkçisi Faysal Mektatın onun yerinə keçəcəyi haqda şayiələr gəzir.**

## *Yeni texnologiya sayəsində 50 ildən sonra yaxalandı*



**ABŞ-ın daxili kəşfiyyat idarəsi FBI 50 il əvvəl həbsxanadan qaçan Leonar Rayne Mosesi yeni barmaq izi texnologiyası sayəsində Miçiqan əyalətində taparaq saxlayıb.**

**1968-ci ildə ABŞ-da sui-qəsdə məruz qalan Martin Lutherin ardınca baş verən hadisələr ərəfəsində Mary Amplonu qəsdən öldürmək maddəsilə ömürlük həbs cəzası alan Leonard Moses həbsxanadan 1971-ci ildə qaçmışdı.**

**Eminquey**

## *Ermənistanda istefalar davam edir*



**Ermənistan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Karen Mirzoyan və Ətraf Mühit Nazirliyinin mətbuat katibi David Qriqoryan istefa verib.**

Bu barədə məlumat Ermənistan KİV-də yayılıb.

Xatırladaq ki, dünən Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan və ətraf mühit nazirinin müavini İrina Kaplanyan istefa verib.

**MEHRİBAN**

# Şəhid ailələrinə mənəvi dəstək

**Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında sentyabrın 27-dən başlayaraq 44 gün davam edən Vətən müharibəsində rəşadət göstərərək düşmən üzərində qazandığımız parlaq qələbədə kürdəmirlilərin də payı az deyil. Müzəffər ordumuzun sıralarında xidmət edən kürdəmirli döyüşçülər savaş meydanında cəsarətlə vuruşmuşlar. Onların arasında yaralanan, yaraları sağaldıqdan sonra təkrar döyüş bölgəsinə qayıdanlar və qəhrəmancasına şəhidlik zirvəsinə ucalanlar da var.**



Kürdəmir ziyalılarını ətrafında birləşdirən Kürdəmirin Tədqiqi və Təbliğinə Dəstək İctimai Birliyinin fəallarından Habil Məmmədov, Yaqut Bahadurqızı, Nuralı İsmayılov, Altay İslamzadə, İradə Mahmudova, Zeynal Səfərov, Elbrus Zamanov və başqaları 15 noyabr 2020-ci il tarixdə II Qarabağ savaşında qəhrəmancasına həlak olmuş şəhid ailələrindən bir neçəsinə baş çəkmişlər. Qazilərə, döyüşçü, şəhid ailələrinə maddi-mənəvi dəstək olmağı özünə müqəddəs borc bilən İctimai Birliyin üzvləri ilk olaraq 15 noyabrda ad günü olan şəhid, gizir İsmət Məmmədovun qızı Dənizin ad gününü ailə ilə birlikdə qeyd etmək üçün rayonun Sor-sor kəndinə yollandılar. Hələ heç nəyin fərqində olmayan 2 yaşlı, hərbi geyimli Dəniz əlindəki kiçik bayrağı yelləyərək öz körpə ləhçəsində ”Vətən”, ”Azərbaycan”, ”Qarabağ bizimdi” söyləməsi hər kəsi kövrəltdi.

Sonra ictimai birliyin üzvləri elə həmin kənddən, Şuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olmuş Şiralı Səlimovun, Qarasu kəndindən baş gizirlər Ramil Quliyevin, Nahid Mikayılovun, müddətdən artıq xidmət edən Elnur Abışovun, baş gizir Elvin Ömərovun, əsgər Qoşqar Ömərovun, Xırdapay kəndindən Pəhli Qəribovun ailələrinə də baş çəkmişlər.

**Şəhid ailələri başlarını dik tutaraq igid oğulları ilə qürur duyduqlarını söyləyir, şəhid balaları cəbhədə düşmənə qan udduran atalarından ötrü darıxsalar da qəhrəmanlıq göstərərək şəhid olmaları ilə fəxr etdiklərini bildirirdilər. Görüş zamanı söylənən fikirlər, oğul böyüdüb ordu sıralarına göndərən, şəhid balasının şəklini sinəsinə basaraq ”Vətən sağ olsun!” deyən Azərbaycan xalqının nə qədər vətənpərvər, nə qədər cəsarətli olduğunu bir daha sübut edir.**

**Yaqut Bahadurqızı**
**Filologiya üzrə fəlsəfə doktoru**
**Kürdəmir rayonu**

# BMT-dən qorxulu proqnoz

**2021-ci il 2020-ci ildən daha pis olacaq. Bizi Bibliya miqyasında (Bibliyada göstərilən kimi) aclıq gözləyir.**

Bunu BMT-nin Ümumdünya Qida Proqramının rəhbəri Devid Bizli deyib. O, bununla bağlı BMT TŞ-yə apreldə xəbərdarlıq etdiyini bildirib: ”Koronavirus pandemiyası fonunda dünya həmçinin aclıq pandemiyasının sərhədindədir. Əgər təcili tədbirlər görülməsə, bir neçə ay ərzində Bibliya miqyasında aclıq görə bilərik. Biz bunun qarşısını 2020-ci ildə ala bildik”, - deyə o bildirib.



**Bizli rəhbəri olduğu idarənin gələn il 15 milyard dollara ehtiyacı olduğunu deyib. O, bu vəsaitin 5 milyard dollarının aclığın qarşısının alınmasına, 10 milyard dollarının isə agentliyin qlobal proqramlarının icrasına xərclənəcəyini söyləyib.**

**MEHRİBAN**



*Abid Tahirli*

# 20 faiz əraziyə 20 faiz əhali

***Əslən Xankəndindən və Ağdamdan olan iki qonşumun söhbəti bu yazı üçün əsas oldu. Biri titrək səslə o birinə deyirdi:***

***-Evimiz Xankəndinin mərkəzində, Şəhər Partiya Komitəsinin beş addımlığında idi. Lənət olsun bu xain, alçaq ermənilərə, bir çöp belə götürmədən ata-baba ocağımızı tərk etdik. Şükür ki, torpaqlarımız o murdarlardan təmizləndi. Sağlıq olsun, ilk imkandan Xankəndinə gedəcəyəm. Evim qalırsa, lap yaxşı, yayda nəvələrimi göndərəcəyəm istirahət etsinlər. Ermənilər evimi dağıdıblarsa, yenisini tikəcəyəm, getməyə bir yerimiz olsun.***

***Ağdamlı qonşum onun sözünə qüvvət verdi:***

***- Düz fikirləşirsən, mən də elə o cür edəcəyəm. Dəqiq bilirəm ki, erməni quldurlar kəndimizin bütün evlərini söküb talan ediblər. Amma sağlıq olsun, biz də qayıdıb əvvəlkindən yaxşı, kürsülü ev tikəcəyik. Bizim uşaqlar Bakıda böyüyüblər, heç ata-baba yerlərini görməyiblər, qoy onların da bir ocağı olsun!***

***Qonşularımın niyyətləri, arzuları təbii və təqdirəlayiqdir. Onların fərdi təşəbbüsləri ilə yanaşı Qarabağ məsələsinin kökündən və birdəfəlik həll olunması üçün irimiqyaslı və uzunmüddətli sosial-iqtisadi istiqamətli dövlət proqramları müəyyənləşdirilməli və həyata keçirilməlidir. Bütün planlar işğaldan azad olunmuş 20 faiz ərazimizdə əhalinin ən azı 20 faizinin məskunlaşdırılması perspektivinə hesablanmalıdır. İlk növbədə vətəndaşların rahatlığına xidmət edən müasir və güclü iqtisadi və sosial infrastruktur yaradılmalıdır. Bölgə əyalət statusundan nəhəng elm, təhsil, səhiyyə, mədəniyyət mərkəzinə çevrilməlidir. Mədəniyyət Nnazirliyinin ədəbi-mədəni-mənəvi sərvətimizin məbədi, musiqimizin beşiyinə- Şuşaya, Kənd Təsərrüfatı Nazirliyinin ölkədə aqrar sahənin aparıcı bölgələrindən birinə- Bərdəyə, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin ölkənin su resuslarının əhəmiyyətli hissəsini özündə birləşdirən Sərsəng, Suqovuşan su anbarlarının yaxınlığındakı Tərtərə, bir sıra Dövlət komitələrin, ali məktəblərin də regiona köçürülməsi məqsədəuyğundur. Bu tədbirlər Qarabağın sosial-iqtisadi, mədəbi baxımından çiçəklənməsinə təkan verməklə yanaşı, xalqımızın əsrlər boyu sülh, sabitlik şəraitində, xoşbəxt və firavan yaşamasını təmin edəcəkdir.***

## "WhatsApp" istifadəçilərinə qarşı "fişinq" hücumlar həyata keçirilir

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti vətəndaşları "WhatsApp Inc." şirkəti adından həyata keçirilən "fişinq" kampaniyaları barədə xəbərdar edir. Belə ki, kiberdələduzlar istifadəçiləri "tələ"yə salmaq və fərdi məlumatlarını ələ keçirmək məqsədilə onlara "WhatsApp" üzərindən saxta mesajlar göndərir.**

Göndərilən mesajlarda istifadəçinin mobil nömrəsinin guya "WhatsApp" tərəfindən "COVID-19"- la bağlı həyata keçirilən kampaniyada qalib gəldiyi və 700 min ABŞ dolları məbləğində pul mükafatına layiq görüldüyü bildirilir. Həmin mükafatı almaq üçün istifadəçidən mesajda göstərilən qeydiyyat nömrəsini process@intldraws.com elektron poçt ünvanına göndərməsi istənilir.

Məlumata etimad edib həmin e-poçta yazan istifadəçiyə "WhatsApp Inc." adından mobil nömrəsinin şanslı nömrə olaraq seçilməsi ilə bağlı təbrik göndərilir və ödənişin köçürülməsi üçün ad, soyad, yaşadığı ölkə, milliyyəti, cinsi, ailə vəziyyəti kimi fərdi məlumatlarını təqdim etməsi istənilir.

Məlumatlarını təqdim edən istifadəçiyə fərqli e-poçtdan (programintl.info@gmail.com) saxta hədiyyə sertifikatı göndərilir və bank əməliyyatlarının aparılması üçün remittance@creditsunion.cc e-poçtuna mesaj yazması bildirilir. Həmin e-poçta cavab olaraq saxta "Credit Union Bank" tərəfindən köçürmənin edilməsi üçün istifadəçidən bank hesabı məlumatlarını və şəxsiyyət vəsiqəsini təqdim etməsi istənilir.

İstifadəçi həmin məlumatları təqdim etdikdə məlumatlar kiberdələduzun əlinə keçir və digər bədniyyətli əməllərin həyata keçirilməsində istifadə edilir.

Bu cür kiberhücumlardan qorunmanın ilk üsulu alınan hər mesaja şübhə ilə yanaşmaq, cəlbedici vədlərə aldanaraq ani hərəkət etməmək və məlumatın düzgünlüyünü fərqli əlaqə vasitələrindən istifadə etməklə yoxlamaqdır.

Bu cür mesajlar alan istifadəçilərdən xahiş olunur ki, bu mesajlara cavab verməsinlər və "Report spam (Şikayət et)" seçimini etməklə mesajı "spam" olaraq şikayət etsinlər.

Hər hansı şirkət, qurum və ya təşkilat adından bu kimi məlumatlar aldıqda, ilk öncə həmin müəssisə ilə əlaqə saxlayaraq və ya veb-brauzerdə açılan yeni səhifədə onun rəsmi saytına daxil olaraq məlumatın düzgünlüyündən əmin olsunlar.

Həmçinin bu kimi hallarla üzləşdikdə www.cert.az saytı və ya reports@cert.az elektron poçt ünvanı vasitəsilə Elektron Təhlükəsizlik Xidmətinə məlumat versinlər.

## "Uşaqlarımızı geri qaytarın!" - İrəvanda əsgər valideynləri aksiya keçirib

**Qarabağ döyüşlərində itkin düşmüş erməni hərbi qulluqçuların valideynləri, qohumları Ermənistan müdafiə nazirliyinin binası qarşısına toplaşaraq övladlarının, qardaşlarının, həyat yoldaşlarının harada olduqları sualına cavab tələb ediblər.**

Azvision.az xəbər verir ki, hazırda Müdafiə Nazirliyinin binası yaxınlığında vəziyyət gərgindir. Valideynlər övladlarının koordinatlarının verməsini tələb edirlər. Bildirirlər ki, onlar özləri övladlarının ardınca getməyə hazırdırlar.

Eyni zamanda Müdafiə Nazirliyinin inzibati binasının girişi polislər tərəfindən bağlanıb.

"Uşaqlarımız haradadır?", "Uşaqlarımızı geri qaytarın!", "Niyə siyahıların heç birində yoxdurlar", - deyə onlar etiraz ediblər.

Qarik Mxitaryan adlı aksiya iştirakçısı bildirib ki, oğlu avqust ayında orduya çağırılıb. Təcrübəsi olmadan müharibənin əvvəlindən cəbhə bölgəsinə göndərilib. İndi oğlu haqqında hər hansı məlumat yoxdur, siyahıların heç birində adına rast gəlinməyib.

**Digər bir valideyn Artur Kirakosyan hələ də övladlarını tapmadığını deyib. Oktyabrın 10-dan oğlu ilə bağlı xəbərsizdir. Təkcə onun oğlu deyil, bütün batalyon yoxa çıxıb.**

# Nazirlik fermerlərə subsidiya ilə bağlı müraciət etdi

**Kənd Təsərrüfatı Nazirliyi məhsul subsidiyası alan - pambıq, şəkər çuğunduru və tütün istehsal edən fermerlərə müraciət edib.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, müraciətdə bildirilir ki, fermerlər satdıqları məhsulla bağlı məlumatların tədarükçü tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində yerləşdirildiyinə əmin olmalıdırlar. Bunun üçün satılan məhsulun həcmi, məbləğini təsdiqləyən alqı-satqı müqaviləsini və qəbzləri tədarükçülər EKTİS-ə yükləməlidirlər.

"Pambıq, şəkər çuğunduru və tütün istehsalçıları hansı tədarükçüyə və nə qədər məhsul satması barədə məlumatı özləri də EKTİS-ə daxil edirlər. Lakin bu məlumatları mütləq tədarükçülər təsdiqləməli və ya özləri birbaşa sistemə daxil etməlidirlər. Əks halda, bu istehsalçılara məhsul subsidiyası hesablaya və ödəyə bilməyəcəyik".



Qeyd edək ki, 2020-ci ildən başlayaraq bütün aqrar subsidiyalar EKTİS üzərindən müraciət əsasında Fermer Kartına ödənilir. EKTİS həm kənd təsərrüfatı məhsulları istehsalçılarının, həm təchizatçı və tədarükçülərin, həm də fermerlərə xidmət göstərən baytar, süni mayalanma mütəxəssislərinin qeydiyyatdan keçib, bir-biri ilə əlaqə qura bildiyi vahid aqrar platformadır.

2020-ci ilin subsidiya əmsallarına uyğun olaraq, fermerlərə dövlət büdcəsi hesabına tədarükçüyə təhvil verilən pambığın hər tonu üçün 100 manat, quru tütünün hər tonu üçün 50 manat, yaş tütünün hər tonu üçün 5 manat, şəkər çuğundurunun isə hər tonu üçün 4 manat subsidiya ödənilir.

**Məhsul subsidiyası müəyyən edilmiş bitkilər üzrə məhsuldarlığın təşviqinə yönəlib.**

## *Rövşən Tahirdən Anna Hakopyana:* "Birinci Xanım muğamlarımızı Qarabağda tək dinləyəcək!"





**Anna Hakopyan bir neçə ay öncə: "Mən muğamsevər Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanı muğamı birlikdə dinləmək üçün Qarabağa dəvət edirəm. Beləliklə, onun muğam haqqındakı arzularını gerçəkləşdirə bilərik. Mehriban Əliyeva çağrıma cavab versə, yaxşıdır".**

**Buradan Annaya səslənirəm: "Anna Hakopyan, Mehriban xanımın həyat yoldaşı Cənab Prezident İlham Əliyev elə cavab verdi ki, Birinci Xanım muğamlarımızı Qarabağda, Şuşada tək dinləyəcək! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

**Несколько месяцев назад Анне Хакобян: "Я приглашаю любящую мугам Первую Леди Азербайджана Мехрибан Алиеву в Карабах для совместного прослушивания мугама. Таким образом, мы можем притворить в жизнь ее мечты о мугаме. Было бы хорошо, если Мехрибан Алиева ответит на мое приглашение".**

**Обращаюсь к Анне: "Анне Хакобян, муж Мехрибан Алиевой - Господин Президент Ильхам Алиев так ответил, что теперь Первая Леди будет одна слушать мугамы в Карабахе, и в Шуше! Карабах наш, Карабах-это Азербайджан!"**

**Anna Hakobyan a month ago: "I invite the First Lady of Azerbaijan mugham-loving Mehriban Aliyeva to Karabakh to listen to mugham together. So, we can realize her dreams about mugham. It will be good, if Mehriban Aliyeva answers my invitation".**

**I call Anna: "Mehriban Aliyeva's spouse Mister President replied that the First Lady will listen to mughams alone in Shusha, Karabakh! Karabakh is ours, Karabakh is Azerbaijan!"**

# İşğaldan azad edilmiş ərazilərdə sosial xidmət və reabilitasiya müəssisələri yaradılacaq

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun işğaldan azad etdiyi ərazilərimizdə geniş miqyasda quruculuq və abadlıq, habelə sosial infrastrukturun qurulması işləri çərçivəsində sosial xidmətlər və reabilitasiya müəssisələrinin yaradılması da təmin olunacaq.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, dövlət başçısının sosial inkişaf strategiyasının nailiyyətlərindən biri kimi, Azərbaycanda reabilitasiya infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması və eyni zamanda reabilitasiya müəssisələri şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi, reabilitasiya imkanlarının artırılması sahəsində mühüm işlər aparılır. 2019-cu ildə və bu ilin ötən dövründə Bakı, Yevlax, Naftalan, Lənkəran, Xaçmaz, Şəki, Şirvan şəhərlərində Reabilitasiya Müəssisələri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib.

Bu ilin sonunadək Sumqayıt və Şağan Reabilitasiya Müəssisələri də açılacaq.

Uşaqlar üçün reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri çərçivəsində bu il Şəmkir və Qəbələ şəhərlərində Uşaq Reabilitasiya müəssisələri fəaliyyətə başlayacaq. İşğaldan azad edilmiş ərazilərimizdə əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların əlçatan bərpa müalicə imkanlarına malik olmaları üçün həmin ərazilərdə də yeni reabilitasiya müəssisələrinin yaradılması nəzərdə tutulur. Qısa müddətdə inşa olunacaq müəssisələr müasir avadanlıqlarla da təchiz ediləcək.




Bərpa müalicə prosedurlarının formalaşdırılmasında bölgənin yerli təbii müalicəvi resurslarından da səmərəli istifadə olunması diqqətdə saxlanacaq.

Həmçinin, sosial xidmət mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri işğaldan azad edilən ərazilərimizi də əhatə edəcək.

Bu bölgələrimizdə tənha ahıl və əlilliyi olan şəxslərin evlərində sosial məişət xidmətləri ilə təminatı həyata keçirilməklə yanaşı, stasionar və yarımstasionar tipli sosial xidmət müəssisələri də yaradılacaq. Eyni zamanda, dövlət sosial sifarişləri əsasında qeyd edilən ərazilərdə günərzi qayğı və icma əsaslı reabilitasiya xidmətləri göstərən mərkəzlərin qurulması təmin olunacaq.

Bakı və Göyçay, Gəncə şəhərlərində peşə hazırlığı mərkəzləri fəaliyyət göstərir və işğaldan azad edilmiş bölgələrimizdə də yaxın dövrdə regional peşə hazırlığı infrastrukturunun qurulması nəzərdə tutulur.

**Bu istiqamətdə aparılacaq işlər, yaradılacaq müəssisələr həmin bölgələrimizdə reabilitasiya və sosial xidmətlər sisteminin qurulması ilə bərabər, yeni iş yerlərinin və məşğulluq imkanlarının artmasına da müsbət təsirini göstərəcək.**

*Toğrul Axundov*
*Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi*



# GÖZÜN AYDIN, AZƏRBAYCAN!

**Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən edilmişdir. Elə o gündən ədliyyə işçiləri öz peşə bayramlarını keçirirlər. "Ədliyyə" ərəb sözüdür və məhkəməyə aid işlərə baxan hökumət idarəsi anlamındadır. Heç şübhəsiz, müstəqil dövləti olmayan xalqın ədliyyəsi də ola bilməz. Bu gün yaranmasının 102 illiyini qeyd etdiyimiz ədliyyə sisteminin tarixi 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə bağlıdır. Belə ki 28 may 1918-ci il Azərbaycan Demokratik Respublikası elan edildiyi gündə Ədliyyə Nazirliyi də yaradılmışdır. Müstəqillik əldə edən Azərbaycan Demokratik Respublikası ədliyyə orqanları və məhkəmələrin daha şəffaf fəaliyyət göstərməsi üçün bir sıra qərarlar qəbul etmişdir. Belə ki 14 noyabr 1918-ci ildə Azərbaycan Məhkəmə Palatasının əsasnaməsi, 22 noyabrda isə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmişdir. Cümhuriyyət dövründə ədliyyə sistemi heç zaman diqqətdən kənarda qalmamışdır. Cəzaçəkmə yerləri ilə aparılan işin ədalət məhkəməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 11 avqust 1919-cu il tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tabeliyində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir.**

Çox təəssüf ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı, 1920-ci il aprel ayının 28-də Bakı neftini ələ keçirmək üçün hər cür hiyləyə əl atan Sovet hökumətinin XI Qızıl Ordusu tərəfindən vətənimiz yenidən işğal olundu. Aradan çox keçməmiş İnqilab Komitəsinin

13 may 1920-ci il tarixli qərarı ilə ADR-in yaratdığı Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradıldı. O gündən ədliyyə sistemində, belə demək olarsa, qabarmalar, çəkilmələr olmuşdur. Gah fəaliyyəti genişləndirilmiş, gah məhdudlaşdırılmış, hətta 1959-cu ildə Ədliyyə Komissarlığı ləğv edilərək məhkəmə orqanlarına rəhbərlik və nəzarət Ali Məhkəməyə həvalə edilmişdir.

İllər sonra Ədliyyə Nazirliyinin yenidən yaradılmasıgörkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun şəxsi göstərişinə əsasən 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş və bununla da ədliyyə tarixində yeni mərhələ başlamışdır.

Doğma Azərbaycanımız ikinci dəfə dövlət müstəqilliyi əldə etdikdən və görkəmli dövlət xadimi Heydər Əliyev ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 19 yanvar və 17 avqust 2006-cı il tarixli Fərmanları məhkəmə və ədliyyə orqanlarının yeni mərhələsini müəyyən etmiş, məhkəmə-hüquq sisteminin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsinə şərait yaratmışdır.

Müasir dövrdə əhaliyə daha çevik, daha səmərəli xidmət göstərmək üçün yeni xidmət növlərinin yaradılmasını tələb olunur. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 13 fevral 2014-cü ildə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncam imzalamışdır.

Bu cür müasir bir sistemin yaradılmasının xalq üçün nə qədər əhəmiyyətli, nə qədər səmərəli olduğunu zaman keçdikcə daha yaxşı dərk edəcəyik.

Bu il 22 noyabr ədliyyə işçilərinin peşə bayramı çox əlamətdar günlərə təsadüf etmişdir. Qarabağın işğaldan azad olunması üçün 27 sentyabrdan başlanan 44 günlükmüharibədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dönməz iradəsi, diplomatik gedişləri və müzəffər ordumuzun şücaəti nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Xocavənd rayonları və ən nəhayət, Şuşa qalası düşmən tapdağından azad olunmuşdur. Taleyin işinə bax, 1992-ci il 8 mayda mənfur düşmənlər tərəfindən işğal olunan Şuşa şəhəri 8 noyabr 2020-ci ildə işğaldan azad edildi. 8 noyabr gecəsi Ali Baş Komandan İlham Əliyevin xalqımıza müjdə xəbərini eşidər-eşitməz paytaxt Bakıda, Naxçıvanda, Gəncədə, bir sözlə, Azərbaycanın bütün kənd və şəhərlərində əhali küçəyə axışıb bayram əhvali-ruhiyyəsi yaşadı. Şəhərlərimiz, kəndlərimiz üçrəngli bayrağımızla bəzədilmişdi. Qaçqın-köçkün adını üstündən atan insanların sevinci hədsiz idi.

Hər bir azərbaycanlı kimi Şuşa mənim üçün də əzizdən əziz bir şəhərdir! Tarixən Şuşa bizim qürur yerimiz olub. ŞuşaBakıdaVətən həsrəti ilə dünyasını dəyişən babam Həsən müəllimin əcdadlarının məskəni idi.

Qəribə təsadüfə baxın. Noyabrın 22-si bizim ədliyyə işçilərinin peşə bayramıdı, noyabrın

20-si isə mənin dünyaya gəldiyim, illərlə həsrətini çəkdiyim Ağdam şəhəri, onun kəndləri mənfur düşməndən azad olacaqdır. O gün 27 il sonra Ağdam məscidində azan səsi ucalacaqdır. İnanıram ki, bu gün illərlə Qarabağın, Şuşanın, Ağdamın həsrəti ilə yaşayan atam Bəhruz Axundovun da ruhu şaddır. Çox təəssüf ki, o, bu xoşbəxt günü görmədi. Atam tanınmış naşir idi. Nəşr etdiyi kitabların titul səhifəsində işğal altında qalan rayonlarımızın adlarını yazdırardı ki, gənc nəslin yaddaşına həkk olunsun. Məqalələrində, esselərində, şeirlərindəhəmişə Qarabağı, Ağdamı, Şuşanı anardı. Atam "Torpaqsız, obasız qarabağlıyam" adlı şeirində yana-yana yazırdı:

***Soruşma halımı, qəlbim qan ağlar,***
***İçimdə bir od var, köksümü dağlar.***
***Ayağım altından qaçıbdır dağlar.***
***Soruşma halımı, qoyma ağlayım,***
***Torpaqsız, obasız qarabağlıyam.***

***Yox, mən o deyiləm, gülən-danışan,***
***Şaqraq zənguləylə muğam oxuyan,***
***Dünyanı xalçada hörüb-toxuyan.***
***Soruşma halımı, ələm çağlıyam,***
***Torpaqsız, obasız qarabağlıyam.***

Bu gün xəyalımda, ürəyimdə, ruhumda yaşayan atama üz tutub deyirəm: Gözün aydın olsun, ata!

Canından artıq sevdiyin Qarabağ Ali Baş Komandan İlham Əliyevin dönməz iradəsi, diplomatik səyləri, şanlı ordumuzun müzəffər yürüşləri nəticəsində mənfur düşməndən azad edildi.

Bu gün şəhər və kəndlərimizdə, mədəniyyət beşiyi olan Şuşada üçrəngli bayrağımız dalğalanır.

**Gözün aydın, Azərbaycan!**

**Gözləriniz aydın olsun, ədliyyə işçiləri!**

**Gözünüz aydın olsun, həmkarlarım, dostlarım!**

**Biz bu gündən fəxarət hissi ilə deyə bilərik ki, biz bütöv Azərbaycanda yaşayırıq!**

## Kanada azərbaycanlıları terror qurbanlarını yad ediblər

**Kanadada yaşayan azərbaycanlı gənclərin təşəbbüsü və təşkilatçılığı ilə Toronto şəhərində yaşayan soydaşlarımız sentyabrın 27-dən bu günədək işğalçı Ermənistan ordusunun münaqişə zonasından kənarda qətlə yetirdiyi mülki şəxsləri yad etmək məqsədilə bir araya gəliblər.**

Diasporla İş üzrə Dövlət Komitəsindən Adalet.az-a verilən məlumata görə, soydaşlarımız münaqişə zonasından uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir və digər yaşayış məntəqələrimizdə mülki əhalinin raket atəşinə tutulması, günahsız insanların, o cümlədən azyaşlıların qətlə yetirilməsi ilə bağlı məlumatları Kanada ictimaiyyətinin diqqətinə çatdırıb.

"Biz dinc əhaliyə qarşı müharibə cinayətlərinin qınanmasını, günahkarların cəzalandırılmasını istəyirik. Xəsarət almış soydaşlarımızın acılarına şərik olmaq, şəhidlərimizi daim xatırlamaq, belə vandalizm aktlarına qarşı səsimizi qaldırmaq və bu faktları yaşadığımız cəmiyyətlərə çatdırmaq bizim borcumuzdur" - deyə soydaşlarımız bildirib.

Aksiya zamanı azərbaycanlılar bir sıra simvolik mesajlardan istifadə ediblər. Belə ki, onlar yastıqlar üzərində qətlə yetirilən insanların adları yazılmış kiçik lövhələr, eləcə də qərənfillər düzərək, onların əksəriyyətinin yuxuda qətlə yetirldiyini və bütün bunların heç bir sözlə ifadə olunmayan




müharibə cinayəti olduğunu diqqətə çatdırıblar.

Əllərində "Bəzən eşidilmədiyimiz üçün yazmalıyıq", "Bəzən ağrının ən dərin ifadəsi sükutdur" sözləri yazılmış posterlər turan azərbaycanlılar bu yolla haqq səslərini çatdırıb və Ana Vətənə dəstək olduqlarını bəyan ediblər.

**Aksiya yerli medianın diqqətini çəkib, bu barədə müxtəlif media orqanlarında, o cümlədən www.armeniakills.com saytında ətraflı məlumat dərc olunub.**



*Rəşid FAXRALI*

## Salam, ruhumuzun şəhəri Şuşam!

- 1-

Tanrının qadirliyi
isindirən nəfəsi,
Dədə kəlamlarının
İşığında döyüşən
ərliyin təntənəsi -
Vətən müharibəsi.

Tətik sıxan barmağın
qüdrətinə bax, yağış!
Qorxub qaçan düşmənin
yollarına yağ, yağış.
Döyüşən əsgərlərin
dönməz döyüş ruhuna
qələbə suyu olsun
bir ovuc dümağ yağış;




İşğalın son nəfəsi -
Vətən müharibəsi!
Döyüşdə döyüşçünün
qəlbini Vətən bilir,
Döyüş, zəfər ruhunu
qələbəyə tən bilir
Cıdır düzündən gələn
"Qarabağ şikəstəsi",
Vətən müharibəsi!..

-2-

Gücünü yer üzünə
görk eləyib döyüşür.
Şəhidlərin ruhunu
börk eləyib döyüşür
Azərbaycan əsgəri.

Əsgərdi, Vətən adlı
məhəbbətin əsgəri!
İllərin ödəncitək
Vətən adlı dünyaya
sədaqətin əsgəri!
Başlanğıcdan bu günə
nəhayətin əsgəri,
Azərbaycan əsgəri!

Sizin sağ-solunuzda
güllələrdən əlləri
didilən dağ döyüşür,
Qundağından qan daman
neşə yaraq döyüşür,
Yaralı əsgərlərin
Yaralı əllərində
qanlı bayraq döyüşür,
Azərbaycan əsgəri!

Qələbələr deməkdi
yeri-göyü yandıran
oddan doğulan döyüş,
közdən doğulan döyüş,
Düşmənə son nəfəsdi,
sizdən doğulan döyüş,
Azərbaycan əsgəri!

Göy üzünün çiynindən
sürüşübdü çuxası...
Qələbə ruhu sizə
döyüş üvertürası,
Azərbaycan əsgəri!..

-3-

Döyüş əzmi qoruyur,
Zəfər ruhu qoruyur
səngərlərdə torpağı,
Torpaq - Vətən torpağı.
Döyüşün o üzünə
Döyüş qətiyyətindən
bir öyüd içib gedir,
Yolları kürmələyib
bir ağ yol seçib gedir,
Soraq - Vətən sorağı!

Bu, Füzuli! Bu, Cəbrayıl!
Bu, Zəngilan! Bu, Qubadlı!
Ruhumuzun nidası
nə gözəl sığal çəkir
göylərin göy üzünə.
Bir döyüşlük yol qalıb
burdan Cıdır düzünə,
Bayraq - Vətən Bayrağı!..

-4-

Əsgərim, bəşərim,
illərədən bəri
Şuşa, Cıdır düzü, İsa bulağı
Yolunu gözləyir qulağı səsdə.
Döyüşçüm, igidim, haqqın var, indi
sökülən dan yeri çırağın olsun,
səhərin yalləri darağın olsun,
Göylərin şimşəyi yarağın olsun,
Tanrının duası bayrağın olsun...

-6-

Salam, döyüşçü qardaş!
Neçə illərdən bəri
sənin ayaq səsindən,
Çölün-düzün buzunu
əridən nəfəsindən
Oyanıb zirvələrdə
qar cücərdən qar daşım,
Ay döyüşçü qardaşım!

İndi məmləkət boyu
daş da, dağ da deyir ki,
Axar su da deyir ki,
gur bulaq da deyir ki,
Uğrunda döyüş gedən
Qarabağ da deyir ki,
qürurla dalğalanan
canım bayraq deyir ki,
qəhrəmanlıq sorağın
düşüb hər kəndə, əsgər!

Qadir döyüşlərinlə
yetir sərhəddə, əsgər!..

Sərhəddin ən gözəli
incə şüşədi, əsgər.
Dünyanı heyran edən
yerdi, guşədi, əsgər.
Şəhər biçimli qala,
Qala biçimli şəhər
Ruhum Şuşadı, əsgər!

-7-

Düşmən gərək biləydi ki,
hər ürəyin mehri olan,
qürurunun möhrü olan
Qala-şəhər
Otuz ildə sıxıntılar yaşasa da,
Səksəkəli yuxusunda
"dağı arana, aranı dağa daşısa da",
Gözümüzdən uzaq düşən
İsa bulağının səsi bir az batsa belə,
Qaladan Topxanaya enən cığır
dolaşığa düşsə belə,
Aylar ötə, illər ötə
Bu millətin oyaq ruhu,
Göy üzünə dayaq ruhu
Bu qisası qoymaz qala qiyamətə!

-8-

O bayraq apardı sizi döyüşə,
Qeyrətin döyüşün kəsəri oldu.
Ordu məmləkətin əsər yazanı,
Döyüşlər ordunun əsəri oldu.

Nələr yanıyırdı qoca dünyanı,
Düşmənin heyrəti saraldı, soldu.
Qoy dünya görsün ki, Azərbaycanın
döyüşü nə qədər bəşəri oldu!

-9-

Bu gün necə sarılıb
Ruh canımız Vətənə,
canımız Vətən ruha,
Döyüşlərdə əsgərin
ruhundan bitən ruha,

Elə istəyirdim həsrət əllərim
Şuşada yaylıqtək sərilə bilsin
Şəhid məzarların baş daşlarına.
Təntimiş göz yaşım qarışa bilsin
Şuşalı ananın göz yaşlarına.

Ömrüm, yaşım Şuşadı,
Can sirdaşım Şuşadı.
Qarabağ - canamazım,
Möhür daşım Şuşadı.

-10-

Eyni açılıbdı ruhumun bu gün,
Bu soraq dolaşır aranı-dağı.
Vətən intizardan qurtarır indi
Şuşaya güzgüdü zəfər bayrağı!

Dağlar dağ səbriylə dinləyir indi
Qalib əsgərlərin ayaq səsini.
Cıdır düzü gülür...
İsa bulağı
Oxuyur "Qarabağ şikəstəsi"ni!..

# ATƏT-İN 28 İLLİK FƏALİYYƏTSİZLİYİNİN NƏTİCƏSİ

**Bu ilin mart ayının ilk günlərinə kimi dostların, tanışların keçirdikləri tədbirlərin, yığıncaqların daimi iştirakçısı idim. Yubleylərə, kitab təqdimatlarına, respublikanın tanınmış şairləri, yazıçıları, incəsənət xadimləri ilə görüşlərə həvəslə gedirdim. Bu görüşlərdən də əldə etdiyim qazancım bilmədiyim, eşitmədiyim idi. Belə tədbirlərlə yanaşı, havadarlarının, xaç qardaşlarının köməyi, dəstəyi ilə vandal ermənilərin işğal etdiyi torpaqlarımızın, soyqırım həyata keçirdiyi yaşayış məkanlarımızın işğal günləri idi. Bu işğal günlərinin keçirilməsi mənə ağır gəlirdi, mənliyimə, qüruruma toxunurdu, sıxılırdım, miskinləşirdim. Yana- yana, qovrula-qovrula, bəzən də hayqıra-hayqıra danışırdım. Ermənilərə qarşı kinimi, nifrətimi, qəzəbimi bildirirdim. Bu günə düşməyimizin günahını da özümüzdə görürdüm. Və bütün ədəb- ərkan normalarını unudub deyirdim ki, bu günə, bu dəqiqəyə kimi bizim kişilikdən,qeyrətdən, namusdan danışmağa haqqımız yoxdur. O gün mənlikdən, şərəfdən, kişilikdən, qeyrətdən, namusdan danışacayıq ki, bu gün işğal gününü göz yaşları ilə qeyd etdiyimiz yaşayış məntəqələrimizin azadlıq gününü keçirəcəyik. Qisasımızı qiyamətə qoymayacayıq. Nə vaxta kimi qələbə yox, işğal günlərinə yığışacayıq? Axı danışanda yekə-yekə deyirik ki, biz Babəklərin, Cavanşirlərin, Şah Xətailərin, Koroğluların nəsilindənik. Yüzə- yüz onlardan heç biri bu acı məğlubiyyətlə, işğalla ömründə barışmazdılar.**

Əgər doğurdan da, biz onların nəsilindəniksə, niyə 30 ildir ATƏT kimi bir ermənipərəst, ədaləti görməmək üçün kor olan, həqiqəti eşitməmək üçün kar olan, haqqı nahaqqa verən, iığalçı ilə işğal olunanı tərəzinin eyni gözünə qoyub ikili standartlardan çıxış edən bir turis təşkilatından , onun yeyib- içmək üçün Ermənistana, ordan da kefi yuxarı halda Azərbaycana səfərlər edən (yol ölçən), sonrada il boyu verdikləri bəyanatların vergülünə, nöqtəsinə belə toxunmadan onu yeni kimi verən həmsədrlərdən ədalət gözləyirdik.

***Heç yadımdan çıxmaz. Rəhmətlik Əbülfəz Elçibəyin prezidentliyinin yüz gününə bir neçə sual ünvanlamşıdım. Onlardan biri beləydi: - ATƏT çərçivəsində Ermənistanla Azərbaycan qarşı durmasını sülh yolu ilə nizama salmaq üçün bütün danışıqlar nəticəsiz qalıb. Ölkə ağır iqtisadi vəziyyətdə olduğu halda Romaya və başqa şəhərlərə ketmək üçün bu qədər xərc çəkməyə dəyərmi?***

***O vaxtı- yəni 26 sentyabr 1992- ci il tarixdə "Azadlıq" qəzetində Ə. Elçibəy aşağıdakı cavabı vermişdi: "Danışıq nə qədər mümkündürsə, nümayəndə getməlidir.***

### *İndi bu məsələni*

dövlət səviyyəsində götürsək, qəpik- quruşdur. Düzdür, adambaşına 5- 10 min dollar gedir. Əgər birdən danışıq baş tutsa və sülh əldə olunsa, onda bizim milyonlarla pulumuz hədər getməyəcək. Adamlarımız ölməyəcək. Qətil- qarət dayanacaq. Məsələn, Amerika vaxtı ilə Sovetlər Birliyinə gedib- gəlməsi üçün milyonlarla xərc qoydu. Dedilər ki, bu boş danışıqlardır. Amma SSRİ ilə elə bir danışıqlara gəldi ki, hərbə qoyduğu yüz milyardlardan yaxa qurtardı. Hər halda başlıca yol danışıqlar yoludur. Hərbi yol isə ikinci, üçüncü yeri tutur".

### *Sadədən sadə olan Əbülfəz Elçibəy*

beynəlxalq təşkilatların fəaliyyətinə, onların bizi erməni vəhşiliyindən qurtaracağına sadə xalq kimi inanırdı. Onun dediyi kimi 28 ildə ATƏT- in yzlərlə danışıq xatirinə aparılan danışıqlarının iştirakçısı olduq. Hər danışıqdan sonra da danışığında mübtadayla xəbərin yerini dəyiş- düyüş salan, Azərbaycan budaq cümləsinin yerinə erməni budaq cümləsi deyən Xarici İşlər Nazirimiz E. Məmmədyarov bəy bəyanat verirdi ki, danışıqlar səmərəli keçdi, münaqişənin nizamlanmasında müəyyən razılığa gəldik.

***Bunların hamsı gözə kül üfürmək idi. Ruhun şad olsun Əbüləz bəy, sənin dediklərinin hamsını 28 il sərasər elədik. Amma bu illərdə (atəşkəs illərində)ATƏT həmsədrlərinin havadarlığı ilə ermənilər hər gün yox, hər saat əsgərlərimizi, ərazilərimizi və dinc əhalimizi iri çaplı silahlardan atəşə tutdular, yüzlərləinsanı qətlə yetirdilər.***

Bir sözlə dünyanın yekədən- yekə təşkilatı olan BMT-nin cəsarətsizliyi (mən buna güc dövlətlərinin buyruq qulu deyərdim), ATƏT- in 28 illik ermənipərəsliyi, xristian təsübkeşliyi bizim səbrimizi daşdırdı. Və elə daşdırdı ki, ürəyimizə təpər, qolumuza güc gəldi. Kimliyimiz, kimlərin övladları olmağımız yadımıza düşdü. Nərə çəkib əzəli və əbədi düşmənimiz olan erməninin üstünə yeridik. Yeridik ki, BMT- nin 28 il kağız üzərində qalan qətnamələrini yerinə yetirək, yeridik ki, ATƏT- in təmas xəttini darmadağın edib erməni faşistlərini torpaqlarımızdan çıxdıqları yerə kimi qovaq. Tanrının varlığına şükür olsun ki, bu gün Ölkənin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti və müzəffər ordumuzun qəhramanlığı sayəsində illərlə erməni murdarlığından əziyyət çəkən yaşayış məntəqələrimiz azad olunur, təmizlənir.

Müdafiə Nazirliyinin TV-də işğaldan azad etdiyi yaşayış məntəqələrimizdən çəkib yayımladığı kadırlara baxanda adam dəhşətə gəlir. İlahi, insan da bu qədər vəhşilik edər? Mənə elə gəlir ki, heç bir müharibədə belə dağıntılar, talanlar olmayıb. Bu bəşəri cinayətdir. Bunun haqq- hesabını ermənilər verməlidirlər. Özü də tezliklə. Bu cinayətkarlar, vəhşilər, insanlığa ləkə gətirənlər, beynəlxalq qanunlara məhəl qoymayan vandallar döyüş meydanında heçnəyə nail ola bilməyən, acı məğlubiyyətini qəbul etməyən hiyləgər, qəddar, amansız, namərd düşmən heyfini mülkü əhalidən çıxır. Şəhərlərimizi, kəndlərimizi top, raket atəşinə tutur, məsum körpələri, qadınları, qocaları öldürürlər. Bu vandallığa dünya göz yumur, səsini çıxarıb etirazını bildirmir. Budurmu dünyanın insanlığı, bəşəriliyi?!

Bu günərdə qəzetlərdən oxudum ki, bizim şanlı, müzəffər ordumuz düşmənin 6 min nəfərdən çox hərbiçisini məhv edib. Amma bu çox azdır. Onlar son nəfərinə kimi məhv edilməlidirlər. Böyük türk sərkərdəsi Əmir Teymur vaxtında onların sonuna çıxsaydı bəlkə də bu gün bəşəriyyət qulağı dinc və rahat yaşayardı.



### *Rəsmi xəbərlərdə*

tez-tez vurğulanır ki, qabaqlarda olduğu kimi yenə ermənilərlə bir yerdə yaşayacağıq. Mənə elə gəlr ki, bu dünyasında mümkün olan şey deyil. Ortada Xocalı, Gəncə, Bərdə ... soyqrımları var. Azərbaycan xalqı həmişə ermənilərə güzəşdə gedib. Daha bəsdir. Onların ayaq qoyduqları torpaqlar illərlə suyla yuyulmalıdır ki, ora çökən erməni murdarlıqları yuyulsun.

***Bu gün beynəlxalq təşkilatları, ATƏT-in həmsədr ölkələrini Azərbaycanda ermənilərin terrorla insanları qətlə yetirməsi, qadağan olunmuş silahlardan istiadə etməsi, mülki obyektləri darmadağın etməsi yox, döyüş meydanında müzəffər bir ordunun qarşısında duruş gətirə bilməyən, yazıq və aciz bir duruma düşmüşErmənistanı xilas etməkdir.***

***Əgər belə olmasaydı iki gündən bir ATƏT- in həmsədr ölkələri vasitəçilik edib Azərbaycanı hümanitar atəşkəsə sürükləməzdilər. Dəfələrlə bu hümanis atəşkəsə razı olan Azərbaycan atəşkəsin canına yel dəyməmiş ermənilərin hücumuna məruz qalıb. Azərbaycanın sülhpərvərliyindən, hümanistliyindən namərdcəsinə syi- istifadə edən Ermənistan vədinə əməl etmədi. Bütüm mövqeylərimizi, yaşayış məntəqələrimizi, mülki əhalimizi top, mərmi, raket atəşinə tutdu. Bunun nəticəsində xeyli insan həlak oldu və yaralandı. Yüzlərlə ev dağıdıldı, insanlara küllü miqdarda ziyan dəydi.***

Ermənilərin və onların vasitəçilərinin məqsədi heç kimə sirr deyil. Məkir və hiylə. Az da olsa vaxt qazanmaq, itkilərin yerini doldurmaq. Deyirəm, o xalq xoşbəxt və bəxtəvərdir ki, onun düşməni mərddir. Mərd düşmənlə müharibə aparmaq şərəfverici və qürur vericidir. Amma çox təəssüf ki, bizim əbədi və əzəli düşmənimiz olan ermənilər namərd, alçaq, şərəfsiz, qeyrətsiz, ləyaqətsiz, hiyləgər, əxlaqsız düşməndir. Belə bir düşməni Allah heç kimə qismət eləməsin. Amin!

### *Ermənilərin necə iyrənc,*

əzazil, hiyləgər, məkirli olduğunu təkcə biz görməmişik. Buna bütün dünya şahiddir. Görün dünyanın tarixi şəxsiyyətləri ermənilər haqqında nələr deyib. Məsələn, qonşu Gürcüstanın görkəmli şairi İ. Çavçavedze yazır: "Ermənilər dost cilidində düşməndir. Onun nəvazişindən, təbəssümündən qorxduğum qədər açıq düşməndən qorxmuram". Şair tamamilə haqlıdır. Onlar bizim torpaqlara yazıq, miskin, əlsiz- ayaqsız kimi gəldilər. Evimizin qapısını taybatay açıb içəri dəvət edib süfrəmizin başında oturtduq. İllər keçdi və onlar bunun müqabilində bizi torpağımızdan və evimizdən çıxarıb torpağımıza, evimizə sahib çıxdılar. Gəlmələr torpaqlı, evli oldu, biz isə köçkün, didərgin. Bu gün Makronun (makoronun) durumuna az qala göz yaşı tökdüyü ermənilər haqqında görün onun soydaşı səyyah Qraf de Şoll nə yazıb: "Ermənilərlə heç cür yaxınlıq edə bilmirdim, çünki onların alçaqlığı və əclaflığı dözülməzdir". Bunun ardınca səyyah yazır: "Ermənilərdə mənfur bir biclik, biabırçı bir əclaflıq və rüsvayçı bir alçaqlıq vardır". Deyirəm nə ola adam Makronun yaxasından tuta və deyə: Ayə, a zalım oğlu halına yandığın, nakişiliyini, haqsızlığını canidildən müdafiə etdiyin erməniləri baban belə görüb. Sənin gözün kordur ki, babanın yazdığını hələ oxumamısan? Oxu bala, oxu, bəlkə nəyisə anladın və haqqa gəldin.

1920- ci ilin mart ayında İngiltərənin xarici işlər naziri Kerzon icma palatasındakı çıxışını belə başlayır: "Cənablar, mənə belə gəlir ki, siz erməniləri 8 yaşında təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bu fikirlə çox yanılırsınız. Halbu ki, ermənilər son dərəcə vəhşi davranışları ilə nə qədər qan tökən xalq olduqlarını qeyd şərtsiz isbat etmişlər". Vallah, mənə elə gəlir ki, bu fikirləri hansı xalq haqqında söyləsəydilər o xalq çoxdan xəcalətindən yerə girmişdi. Amma ermənilər nə xəcalət qanandırlar, nə namus, nə də qeyrət. Onlar üçün namusuzluq, qeyrətsizlik etiketdir. Doğulandan alnlarına yapışdırılıb.

**Kürdlərin bir atalar sözündə ermənilərin etibarsızlığı belə xarakterizə edilir: "Atın kolasına, itin tulasına, erməni balasına etibar yoxdur". Gürcü ataları isə belə deyir: "Erməni gəldi, özü ilə yeni bəla gətirdi". İki yüz ildir ki, erməni bəlasından əziyyət çəkirik. Artıq bu bəladan bir dəfəlik qurtarmaq üzürəyik. Müzəffər ordumuz qələbələrini genişləndirməkdədir. Qarabağ Azərbaycandır! Zəngəzurun Azərbaycan olmasına doğru irəli Azərbaycan əskəri!**

**Məhərrəm Şəmkirli,**
**AYB-nin və**
**AJB-nin üzvü**

# Vətən ağrılı misralar

**(Şair Babulla Hüseynzadənin "Vətənə uzanan əllər" şeirlər kitabı barədə düşüncələr)**

**Vətən müharibəsindən şərəflə çıxmış Azərbaycan sevincli-fərəhli günlərini yaşayır. Axı, allı-güllü yurdumuz düşmən tapdağından tamamilə təmizlənib. Şübhəsiz, qələm adamları savaşın ağrı-acılarından, şəhidlərimizin mərdanə mücadiləsindən, igidlərimizin hünərindən şeirlər, poemalar, nəsr-publisistika nümunələri ərsəyə gətirmiş və bu, yenə davam etməkdədir. Bəli, Azərbaycan əsgəri ən yüksək tərənnümə layiqdir və o, 44 gün ərzində tarix yazmışdır.**

Şair Babulla Hüseynzadənin lap bu yaxınlarda "Apostrof-A" nəşriyyatında işıq üzü görmüş "Vətənə uzanan əllər" şeirlər kitabının da mayası adından göründüyü kimi, torpağımızın əsrarəngiz gözəlliklərindən, təbiət mənzərələrinin təsvirindən, məhəbbət motivlərindən yoğrulmuşdur.

Prezident təqaüdçüsü Balayar Sadiqin redaktorluğu ilə hazırlanan, naşir Akif Dənzizadənin zəhməti sayəsində ərsəyə gələn kitaba Tariyel Ümid qısa, mənalı ön söz yazmışdır. Vaxtilə müəyyən səbəblər ucbatından Rusiyada (Kemerovo vilayətində) yaşayan müəllif qətiyyən qələmi yerə qoymamış, Vətən həsrətindən yoğrulan hiss və həyəcanlarını yeri gəldikcə kağıza köçürmüş, müxtəlif mətbu orqanlarında dərc etdirmişdir.

Müəllif elə uzaq yad eldə - Sibirdə qələmə aldığı "Vətənə uzanan əllər" şeirində həsrətini oxucusu ilə belə bölüşür:

*Sibir şaxtasına məruz qalmışam,*
*Sibirdən qəriblik dərsin almışam.*
*Vətən, nə şirinsən, kövrək olmuşam,*
*Qürbətdə çalışan, qazanan əllər,*
*Qürbətdən Vətənə uzanan əllər.*

Şairin "Vətən", "Gözəldir Lerik", "Babamın yadigarıyam", "Qayıt", "Yaz çağı", "Ya rəbbim!", "Heç kim məni eşitməyir", "Anam təbiət", "Səni Allah amanında olasan", "Buynuzu var, buynuzu", "Dərdləşə-dərdləşə", "Gəlsin" və digər qələmə aldığı maraqlı nümunələrində torpaq, yer-yurd mövzusu önə çəkilir. Onun Leriklə bağlı yazdığı şeirdə "Dağlar ətrafında düzüm-düzümdü, mən orda dey1iləm dağlar özümdü" misraları maraqlı tapıntıdır.

Adını çəkdiyimiz poetik tabloda dağ silsilələri, əyrin-üyrü dolanbac cığırlar, zümzüməli çaylardan sallanan şəlalələr, dumanın tül pərdə çəkdiyi yamaclar, min illər boyu bitmiş dimdik qayalar dərhal nəzərə çarpır.

*Dərd verənə möhtac olma,*
*Hər yabançıya əl açma.*
*Düşmən hədəfinə qaçma,*
*Bar-bar bağırır bu cahan,*
*Məğrur dayan, Azərbaycan!*




"Azərbaycan" adlı bu şeirdə də vətənpərvərliyə çağırış, inam güclüdür. Ancaq B.Hüseynzadənin mövzuları təkcə bununla bitmir. Şairin "Sözüm" adlı beş bəndlik qoşması göstərir ki, o, folklorun, aşıq ədəbiyyatının vurğunudur. Tez-tez qoşma, gəraylı, bayatı yazır.

Məlumdur ki, ilahi söz haqqında Məhəmməd Füzulidən üzü bu yana yüzlərlə adlı-sanlı qələm sahibi fikrini ifadə edib. Müəllifin "Sözüm" şeirində xeyli təzə obrazlar, metaforalar əksini tapıb:

*Bir ana bətnindən ayrılmış kimi,*
*Zülmətdən ulduz tək sayrılmış kimi.*
*Səhər şəfəqində ayılmış kimi,*
*Sığınar körpətək canıma sözüm.*

*Tökülər dilimdən sirr inci-inci,*
*Paylaşar mənimlə hər an sevinci.*
*O nə sonun\cudur, nə də birinci -*
*Yaraşar adıma-sanıma sözüm.*

Kitabda xeyli sayda qəzəl, bayatı, satirik şeir nümunələri var. Əlbəttə, bunların içində uğurlusu da var, nisbətən uğursuzu da. Onlara əl gəzdirmək, düzəltmək mümkündü. Bunun üçün şair tələsməməlidi, səbrlə sözünün üstündə durmalı, onu ətə-qana doldurmaq üçün işləməlidi. Necə deyərlər, söz bişməlidi, sonra kağıza köçürülməlidi.

**Ümumən "Vətənə uzanan əllər" kitabını şairin uğuru saymaq olar. Gəlin, bu müqəddəs, keşməkeşli yolda Babulla Hüseynzadəyə uğur diləyək, ondan daha sanballı şeir topluları gözləyək!**

**Şahin Həmidli**

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 129 (2163) 17 noyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# 1987-1992-ci illərdə Azərbaycanın Dağlıq Qarabağ regionunda nələr baş verirdi?!

## (Bizim çoxlarımızın bilmədiyimiz həqiqətlər...Xankəndi)

(əvvəli ötən sayımızda)

### *Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi ərazisidir*

**1987-1992-ci illərin hadisələrinə keçməzdən əvvəl bir neçə cümlə ilə türk etnoslarının ən qədim yaşayış məskəninə - tarixin izlərini öz köksündə qoruyub saxlayan Anamız Qarabağa kiçik bir ekskursiya edək. Məlum həqiqətdir ki, Azərbaycan çox qədim tarixə, zəngin sərvətlərə, maddi-mədəniyyət abidələrinə malik bir ölkə kimi, ta qədimdən səyyahların, coğrafiyaşünasların, şairlərin, tarixçilərin, müxtəlif sənət və peşə sahiblərinin diqqətini özünə cəlb etmişdir. Azərbaycan xalqı çox çətin tarixi yol keçərək öz şərəf və ləyaqətini qorumuşdur. Fəxrlə deməliyik ki, Azərbaycan bu gün müstəqil bir dövlət olaraq dünya dövlətləri sırasında öz sözünü deyir. Bayrağımız dünya dövlətlərinin bayraqları sırasında dalğalanır, himnimiz ən mötəbər tədbirlərdə səsləndirilir.**

Azərbaycanın Dağlıq Qarabağ adlı ərazisi bütöv bir tamın-tarixi Qarabağın üzvi hissəsidir. Qarabağ həm dağılıq, həm də düzənlik kimi, həmişə bir-biri ilə sıx və qırılmaz şəkildə bağlı olmuş, biri o birisiz yaşaya bilməmişdir. Dədə-babalarımız min illərlə Qarabağda yaşayıblar, kəndlər, şəhərlər salıblar, bu torpağı yadellilərin hücumlarından qoruyublar, Vətənə sonsuz sevgilərindən saysız-hesabsız tarix və memarlıq abidələri: Bayat, Şahbulağı, Şuşa və Əsgəran qalaların, dünyanı heyrətə salan Şuşa adlı bir şəhəri tikiblər, Qarabağ xanlığı adlı dövlət yaradıblar. Bunlar tariximizin qızıl səhifələridir. Bu tarixi həqiqətlər dünya xalqlarına yaxşı məlumdur... Belə sənədlərdən biri də "Soyuz" qəzetində nəşr olunmuş "Qarabağın otlaq təsərrüfatı və biçənəkləri"nə həsr olunmuş yazıdır. Tarixi yazının müəllifi texnika elmləri namizədi Aleksandır Mixayloviç Skibitskidir. O öz atası Mixail Skibitskinin arxiv sənədlərindən istifadə edərək "Qarabağ əyalətinin tarixi-coğrafi təsərrüfat sxemi"ni vermişdir. Çox təəssüf ki, belə bir vacib sənəd mətbuatda ictimaiyyətə az çatdırılmışdır. Olduqca maraqlı olan bu nadir nüsxədə Qarabağın və Dağlıq Qarabağın azərbaycanlılara məxsusluğu tarixi fakt əsasında yazılmışdır. (Bax: Tiflis-1899-cu il). Bu tarixi yazı-vətənsiz ermənilərin Dağlıq Qarabağa köçürülüb gətirildiklərini özündə əks etdirdiyi üçün ermənilər bu diyarşünaslıq sənədlərini məhv etməyə çalışmışdılar, ancaq buna tam nail ola bilməmişdilər.

Qarabağın türk etnoslarına məxsusluğunu Azıx mağarası, Tağlar mağarası, "Şuşa mağarası", Kəlbəcər qayaüstü təsvirləri, Şortəpə, Kültəpə, Uzuntəpə, Üzərliktəpə, Xantəpə, Qaraköpəktəpə, Yedditəpə, Çardaqlı abidələri, Leylatəpə, Xocalı kurqanları (gor evləri. Ə.Ş), Xocalı qəbiristanlığı, Təzəkənd abidələri, Sarıtəpə abidəsi, Örənqala, Üçtəpə, Orta əsr abidələri, Töyrətəpə, Nərgiztəpə, Çələbürd qalası, Govurqala məbədi, Amaras, Ağoğlan, Gəncəsər və s. sübut edir. Qarabağ regionunun çoxsaylı



maddi-mədəniyyət abidələrinə Şuşa rayonunun Şırlan kəndindəki "Qara kaha"nı, "Üçağızlı" kahanı, "Ayı mağarası"nı da misal göstərə bilərik. Bu kaha və mağaralardan çoxlu insan və heyvan sümükləri, daşdan hazırlanılmış çıraq və daş alətlər tapılmışdır. Bu kənddə üçmərtəbəli qəbirlər, nəhəng insanın baş və bazu sümüyü, sümük üzərində insan və at şəkli çəkilmiş təsvirlər, gildən hazırlanılmış mıncıqlar və s. vardır. Həmin kənddən 1-2 km aralıda "Arxaş çayı" deyilən yerin sol sahilindəki yamacda basdırılmış nəhəng küp qəbirlər və s. nədənsə arxioloqlar tərəfindən öyrənilməmiş və tədqiq edilməmişdir.

Elə buradaca onu da qeyd edim ki, 1989-cu ildə Şuşanın yaxınlığındakı Şuşakəndlə Qırmızıkənd arasındakı talada qədim türk qəbirlərinin üstündəki nəhəng başdaşları ermənilər tərəfindən sındırılıb dərin xəndəklərə tökülmüşdür. Hadisə yerinə şəxsən özüm gedib baxmışam. Bu başdaşlarının sındırılmasına etiraz edən yaxın dostumuz mərhum İsgəndər Abdullayevin həmin ərazidəki evi və maşını ermənilər tərəfindən yandırılmış, heyvanları və ailəsi girov götürülmüşdür. Mən, qardaşlarım: Yaqub, Şakir və İsgəndərin qardaşı Məhərrəm hadisə yerinə getdik və İsgəndərin ailəsini güclə ermənilərin əlindən xilas edə bildik.

### *Dünyanı heyrətə gətirən şəhər - Şuşa*

Mən Azərbaycanın Şuşa şəhərinin Şırlan kəndində doğulmuşam. Gözlərimi açanda türk etnoslarının ən qədim yaşayış məskəni sayılan Qarabağı, onun ana bətnindən doğulmuş Dağlıq Qarabağı, 1750-ci ildə Pənahəli xan tərəfindən tikilmiş Bayat, Şuşa, Şahbulaq və Əsgəran qalaların, dünyanı heyrətə salan musiqi və mədəniyyət beşiyi Şuşa şəhərin, onun aşağısında yerləşən vaxtilə Qarabağ xanlığının bağ-bostan yeri, sürülərinin otlaq sahəsi olan, sözün əsl mənasında XX əsrin 50-60-cı illərinədək kiçik bir kəndi xatırladan, Azərbaycanın sərvəti ilə şəhərə çevrilən Xankəndini, sıldırım qayaların üstündə əsrlərlə qərar tutan, Çin səddini xatırladan divarları, qala bürclərini, memarlıq abidələrini öz gözlərimlə görmüşəm, bu şəhərdə böyüyüb boya-başa çatmışam. Artıq mənim 73 yaşım var. Atam danışırdı ki, biz uşaq olanda Xankəndində 5-10 ev vardı. Həmin evlər də azərbaycanlılara məxsus idi. Hətta evlərin sahiblərinin adlarını da deyirdi.

Azərbaycanın tarixi ərazisi sayılan Dağlıq Qarabağın qədim türk etnoslarına məxsusluğunu, burdakı yer-yurd adlarının doğmalığını, gözəlliyini, möhtəşəmliyini, əlçatmazlığını şeir və publisistik, tarixi yazılarla oxuculara tanıtmışam. Bu torpağın havasını udmuşam, suyunu içmişəm, çörəyini yemişəm, xəritəsin gözlərimə köçürmüşəm. Şuşa şəhərində Allaha yaxınlıq rəmzi sayılan minarələrindən göylərə ucalan, insan ruhuna paklıq bəxş edən azan səslərin eşitmişəm, zümrüd meşələrinə, uca dağlarına, qoyunlu-quzulu yaylaqlarına, diş göynədən bulaqlarına, burdakı milli-mənəvi dəyərlərə valeh olmuşam, onlarla əsərlər həsr etmişəm. Dünyaya çatdırmışam ki:

***Üç min il yaşayır Sərv ilə Çinar,***
***Onlar Evkaliptin kölgəsindədir.***
***Everest zirvələr şahı olsa da,***
***Şuşa ulduzların çərgəsindədir!!!***

Sizlərdən nə gizlədim, son 28 ildə həsrətin çəkdiyim el-obalarımıza qovuşacağıma inamımı itirməmişəm! Başımın üstündən uçan durnalara bələdçilik edərək:

***O dağın o üzü bizim Vətəndir,***
***Görün o yerlərdə nələr qalıbdır?!***

sualını verməkdə, həm də bildirmişəm ki, orda:

***Nuhdan üzübəri daş kitabələr,***
***Minillik tarixdi ellər qalıbdlr!***

(Bax: Ə.Ş. "Vətən kişiliyə çağırır bizi" - 2000-ci il). Anam Qarabağa üzümü tutanda isə:

***Bir qara daşın da əzizdir mənə,***
***Qarış torpağını yada qıymaram!***
***Sən ürək yerinə sığdın sinəmə,***
***Yüz il vəsf eləsəm, yenə doymaram!***

- demişəm.

**(ardı növbəti sayımızda)**

**Əyyub Şırlanlı, şair-publisist,**
**əməkdar müəllim,**
**AYB-nin üzvü, müharibə və**
**əmək veteranı**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



**17 noyabr dəyərli şairimiz Əbülfəz Ülvinin doğum günüdür. Bu münasibətlə şair dostumuzu oxucularının adından təbrik edir, ona can sağlığı və daha coşqulu ilham arzu edirik. İnanırıq ki, o, öz poetik dünyasına sadiq qalaraq yeni-yeni şeirləri ilə bizləri həmişə sevindirəcək.**

# Taleyimi kitab kimi oxudum, Yaxşı olan bircə cümlə tapmadım

### *MƏNİM DİLİM*

Sanki yurda təzə gələn,
Yaz dilidir mənim dilim.
Düz amalla üzə gülən,
Düz dilidir mənim dilim.

Hikmət dolu, müdrik, dərin,
Hər sözündə Allah Kərim,
Nigarların, Həcərlərin,
Naz dilidir mənim dilim.

İtirməzdir iman - dinin,
Bir söz soruş, desin minin,
Ələsgərin, Qurbaninin,
Saz dilidir mənim dilim.

Şimşək kimi deyil çaxan,
Çox olsa da rəvan axan,
Düşmənini oda yaxan,
Köz dilidir mənim dilim.

Öz dilimlə elə şadam,
Danışdıqca doymur adam,
Noğul dadan, şəkər dadan,
Söz dilidir mənim dilim.

Xoş məramlı, sülh şüarlı,
Dilim belə olub varlı,
İsmətinə etibarlı,
Qız dilidir mənim dilim.

Bu qədər ki, səlis, həzin,
Açarı var qəlbimizin,
Bəlkə elə Rəbbimizin,
Öz dilidir mənim dilim.

### *YAZ GƏLİR*

Gör təbiət necə gülür, bəzənmiş,
Yaz gələndə, bu libasda yaz gəlir.
Öz işvəsi, öz qəmzəsi az imiş,
Gözəllərə bahardan da naz gəlir.
Nəğmələşir sevənlərin dilində,
Təzahürü doğur qızda, gəlində,
Sanki bir vaxt Qopuz tutan əlində,
Dədəm Qorqud, ulu Qorqud saz gəlir.

Göy üzündə salır ləpir buludlar,
Göydən yeri belə öpür buludlar,
Küçələrə yağış səpir buludlar,
Sanki yarı gələn yola, toz gəlir.

Təbiətdə gör bir necə taraz var,
Gəlişində nə boran, nə ayaz var,
Yer üzündə cəmi bircə Araz var,
Sevgi qəlbə bir yox, min Araz gəlir.

Nəfəsini duyub qaçır qar, yazın,
Qismətinə ələnibdir bar, yazın,
Amma bir az nöqsanı da var yazın,
Don qəlblərə ya gəlmir, ya az gəlir.

### *ALİ BƏNDƏ*

***Böyük insan, istedadlı göz həkimi, gözlərimə üzünün nirunu verən Ərzurumlu ORXAN BAYKALA***

Həm böyük həkimdir, həm ali bəndə,
Ruhudur etibar Orxan Baykalın.
Belə bir qənaət yaratdı məndə,
Əiinin sehri var Orxan Baykalın.

Arzusu xeyirdir, amalı xeyir,
Üz nuru elə bil ay işığıdır.
O, təkcə Ərzurum elinin deyil,
Bütün Türk elinin yaraşığıdır.

Ona Tanrı verib bu mələk donun,
Ovsunu dizimə dözüm gətirdi.
Gözsuz getmiş idim yanına onun,
Geri qayıdanda gözüm gətirdi.

Bəzəyir adını şöhrət, şərəf, şan,
Yoxdur bir düşməni, dostları mindi.
Təkcə həkimim yox bu böyük insan,
Həm də ürəyimə hakimdir indi

Yanından əliboş qayıtmadım, yox,
Haqında min gözəl yorum gətirdim,
Dedim:- qonaq gedək, dedi:- işim çox,
Gözümdə üzünün nurun gətirdim.

### *QOCALAR EVİ*

Qocalar evinə getdiyim üçün,,
Sandım bu savabla daha ucaldım.
İllər bir il məni qocaldır, o gün,
Qocalar evində on il qocaldım.

Heç kəs danışmağa etmirdi meyil,
Gözləri nisgilli, üzlər xar idi.
Ay aman, çoxları kimsəsiz deyil,
Ovladı, uşağı olanlar idi.

Ürəyim sinəmdə sıxıldı çox-çox,
Onlar sinələri dağlı qocaydı.
Düşündüm əslində onlar qoca yox,
Onları atanın ağlı qocaydı.

Görən ata, ana atan nə sanır?
Sevgi yox, yaşadır minnət içləri.
Özləri cəhənnəm oduna yanır,
Evdən sürgün edən cənnətlikləri.

Sanki məni qəlbdən çəkdilər dara,
Dedim:-bunu necə sirr saxlasınlar.
Bəlkə qoyubdular bilərək bura,
Onların özünə yer saxlasınlar.

Qayğıyla getmişdim, dərd daddım orda,
Qayıtdım gözümə yaş dola-dola.
Amma xəyalımı saxladım orda,
Bəlkə qocalardan muğayat ola.

### *ANAMDAN*

Məni anam verib dünya məkana,
Hər zaman əminəm, əmin anamdan.
Məndən zərər gəlməz, ədəb-ərkanıa,
Çünki olunmuşam təmin anamdan.

Məni o gətirib imana, dinə,
Yolumda hər dərdə o gərib sinə,
İnsanlar dünyaya gələrsə yenə,
Deyərəm doğulum həmin anamdan.

Bilmirəm nə sayaq verim şəhrini,
Düzgün aça bilsin ana sehrini,
Biri istək verib, biri mehrini,
Bunların almışam cəmin anamdan.

Bu gün elə coşdu Ülvi ilhamı,
Elə tərif etdi bir yananan şamı,
Qorxuram ah edib, söyləyə hamı,
Kaş mən də olardım sənin anandan.

### *AXI*

Bayılı qalmışam işvənə, canım,
Döz deyə bilmirəm dözümə, axı.
Belə yandırırsan kül olum, yanım?
Yanaram söz gələr üzünə, axı.

Biləcək onsuz da el əvvəl, axır,
Çox göz var eynəyi qeybətdən taxır,
İşə bax, gözlərin gözümə baxlr,
Təsirin göstərir dizimə, axı.

Sus, məni salarsan, daşa, qalağa,
Təzədən gec deyul dindar olmağa,
Məni təhrik edir namaz qılmağa,
Şux səsin bənzəyir əzana, axı.

Ağlımı başımdan belə alasl,
Gözlərim gözündə oldu qalası,
Neynirsən dörd gözü, zalım balası?
Düşərsən xoşlanmaz yozuma, axı.

İnçitmə Ülvini, dəymə şəstinə,
Qaytar gözlərimi, salma qəsdinə,
Baxıb düşmək üçün yenə, məstinə,
O gözlər lazımdır özümə, axl.

### *KEÇMƏSİN*

Dedim dua eylə sağalım, canım,
Elə sal yolunu qəmdən keçməsin,
Etmədin gəl gedək ağ alım, canım,
Qoy arzun, diləyin kindən keçməsin.

Baxma ürəyində sevinc, gizlicə,
Divi də dərd udar dirigözlüc, İstisna,
fərq yoxdur əcəldə bircə,
Kimdənsə yan keçsin, kimdən keçməsin.

Mən lal dediyimə, sən də baxma lal,
İnsafslz nə etsən, olmaz o, halal,
Sən öz lövbəruni məhəbbətə sal,
Sərçə tək iştəhan dəndən keçməsin.

Yapışma həsrətin sərt ətəyindən,
Gülə də qurd düşər qurd ətəyindən,
Nə olar bir yol da tut ətəyindən,
Xoşbəxtlik dayansın, gendən keçməsin.

Ülvi çox dərd görüb şehli çəməndən
Deyəsən mənimki keçibdir məndən,
Gəl götür ömrümü özünə həmdəm,
Səninki qoy barı səndən, keçməsin.

### *KÖNLÜMÜ*

A canım, sən bəyəm məndən keçmisən,
Axı neyləmisən əsir, könlümü?
Elə bil hicranı cəllad seçmisən,
Qılıncın sıyırıb kəsir könıümü.

Yoxsa ixtiyarın Sultan, Xan keçib,
İşlət yaxşılığa belə an keçib,
Ürəyim Məcnunun kursundan keçib,
Zənn etmə almayıb təhsil, könlümü.

Yoxsa Tanrım mənə qəza göndərib?
Sənin qiyafəndə cəza göndərib,
Yayda da, yazda da buza döndərib,
Sən mənə verdiyin fəsil könlümü.

Sevdanı sındırsan, düzəltməz yaxı,
Tez götür aradan kədəri, ahı,
Sənin öz sinəndə döyünür, axı,
Yəqin görməmisən əsil könlümü.

Ülviyəm, taleyim onsuz dərd alıb,
Zaman elə ona qəmi sərt salıb,
Qarabağ bir, təkcə könlümdə qalıb,
Sən də götürmüsən əsir, könlümü.

### *TAPMADIM*

Taleyimi kitab kimi oxudum,
Yaxşı olan bircə cümlə tapmadım.
Elə etdin ömrü gözdən axıdım,
Hey sinsidim, bir an gülmə tapmadım.

Çox düşündüm, niyə daim göynəyim,
Dərd görməkdən durbin oldu eynəyim,
Dedim, elmi izahını öyrənim,
Bu izahı baxdım elmə, tapmadım.

Sordum bəxtdən:- bu nisgilin dili nə,
Dedi:- düşdüm sərt fələyin əlinə,
Zənn eylədim göz suyuyla silinər,
Nə eyləyim başqa silmə tapmadım.

Çox istədim bu sevdanı çökməyə,
Çox düşündüm həsrət həddi keçməyə
Çox can atdım intizarı sökməyə,
Ələ gələn bircə ilmə tapmadım.

Sınaq etdim, bu dünyanı yoxladım,
Baxma məni taleyimdən oxladın,
Yenə səni ürəyimdə saxladım,
Başqa ölçü elə bilmə tapmadım.

### ***<u>TƏMSİLLƏR</u>***

### *TEST SINAĞI*

Söylədilər:-meşədə,
Test sınağı olacaq,
Hər hası bir peşədə,
Zəiflər qovulacaq.
Beləcə yığışdılar,
Bu sınaqdan keçməyə.
Baxdılar naçar-naçar,
Düz cavabı seçməyə.
Cavablar tapılmadı,
Hallar yaman qarışdı.
Axı test sualların,
Ayı hazırlamışdı.

### *QORXULU DÜŞMƏN KİMİ*

Ylğışıb Tülkü, Çaqqal,
Verdilər qəti qərar.
Aslanı taxtdan salıb,
Eyləsinlər tarı-mar
Şər atdılar olmadı,
Daş atdılar dəymədi.
Heç bir cəfəngiyatlar,
Qürurunu əymədi.
Sən demə meşədə də,
Qazananı uğurlar.
Qorxulu düşmən kimi,
Beşiyində boğurlar.
01.06.2019.

### *KURS*

Dedilər:-kurs açılıb,
Meşədə sən bəyənən.
Belə kursu qurtaran,
Adam olacaq.
həmən.
Üzlərə qüssə axdı,
Heç də gülən olmadı.
Adam olmaqdan qorxub,
Kursa gələn olmadı.

### *AYI SAYAĞI*

Dayısının puluyla,
Hakim seçildi Ayı,
Həndəsi siısiləylə,
artdı suçunun sayı.
Ağa qara söylədi,
Qaraya ağ dedi o.
Haqqa əlvida dedi,
Yalnız haram yedi o.
Desələr də yaltaqlar,
Ona elin dayağı.
Ayı işini gördü,
Yenə ayı sayağı.

# Ürəklərə sığmayan fərəh...

*Saç ağardı, ancaq ürək,*
*Alovludur əvvəlki tək.*

**Şair gözəl deyib. İnsan xeyirxah qəlbə sahibdirsə bu ürəyin alovu -odu heç vaxt sönməz.**

Zaman çox şeyi dəyişir, meyarlar da dəyişir, insanlara, keçmiş hadisələrə verilən qiymət də. Amma insanlıq -səxavət, xeyirxahlıq, yaxşılıq, nəciblik, mərdlik kimi mənəvi dəyərlər öz qiymətini heç vaxt itirmir. Bəlkə elə buna görə də insanın keçilmiş həyat yolunu dərk etmək istəyi heç vaxt tükənmir. Bəli, çox şeyi dəyişən zaman həm də gözəl hakim, hər şeyi zamanın ixtiyarına buraxmaq isə müdriklikdir. Nəcib insanlar yaşa dolduqca yaxşı əməllərinin sayı durmadan artır. Məmmədağa Abbasov da məhz belə dəyər sahiblərindəndir. İş yoldaşları, qonsuları, onu yaxından tanıyanlar deyir ki, bu insan sanki yaxşılıq etmək, dara düşənlərə əl tutmaq, çətinlikdə olanlara kömək əli uzatmaq üçün dünyaya gəlib.



0, 1963- cü ildə Laçın rayonunun bu yaxınlarda erməni işğalından azad olunmuş Güləbird kəndində dünyaya göz açıb. Əslində İmişli rayon sakini olsalar da tale elə gətirib ki, yaylağa gedərkən məhz bu cənnət misallı məkanda doğulub. Ailədə 7 uşaq olublar, valideynləri hər birini zəhmətkeş, əməksevər böyüdüb.

**Hazırda qardaşları Krımda yaşasalar da Məmmədağa kişi qürbətdə çox qala bilməyib, geri dönüb. Elə Vətən həsrəti onu Moskvada da yurd -yuva salmağa qoymayıb, bir müddət sonra Azərbaycana geri dönüb. Hazırda ailəsi ilə Bakıda yaşayan Məmmədağa kişi övladlarını, nəvələrini də vətənpərvər, doğma yurda sevgi ruhunda böyüdüb. Vətən torpaqlarının Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz tərəfindən azad olunmasının sevinci onu dünyanın ən xoşbəxt insanına çevirib. Deyir ki, ailəsi ilə birgə bu yaxında qeyd elədiyi ad günündən sonra aldığı qələbə xəbərləri sevinci 57 yaşın sevincin' daha böyük fərəh qatıb . Biz də onun doğmalarına qatılaraq ad gunu münasibətilə Məmmədağa bəyi ürəkdən təbrik edir, uzun və sağlam ömür arzulayırıq.**

**Selcan**

## Əməkdar artist vəfat etdi



**Azərbaycan Milli Konservatoriyası "Xalq çalğı alətləri" kafedrasının müəllimi, Əməkdar artist, professor Həmid Vəkilov 71 yaşında vəfat edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Milli Konservatoriyasının rəsmi facebook səhifəsində məlumat verilib:

"Milli musiqimizdə öz orijinal dəstixətti ilə seçilən Həmid müəllimin vəfatı Konservatoriyamız və ümimilikdə milli musiqimiz üçün ağır itkidir. Ailəsinə, dost və yaxınlarına səbr diləyirik".

Biz də: "Allah rəhmət eləsin",-deyirik və yaxınlarına səbr diləyirik.

**Qeyd edək ki, Əməkdar artist Həmid Vəkilov tar ifaçılığında etdiyi yeniliklərlə bərabər, ifa zamanı tarl ilk dəfə ayaq üstə çalab sənətçi kimi də tanınmışdır.**

**Rövşən Tahir**

## Ramosdan Avropa rekordu

**İspaniya millisinin və "Real"ın futbolçusu Serxio Ramos yeni rekorda imza atıb.**

Qol.az xəbər verir ki, 34 yaşlı müdafiəçi buna Millətlər Liqasının 5-ci turunda İsveçrə ilə matçda (1:1) nail olub. O, həmin oyunda iştirak etməklə yığmanın heyətində çıxdığı qarşılaşmaların sayını 177-yə çatdırıb.

Bu isə Avropada milli komandalar üçün yeni rekord sayılır.

Bunadək ən yüksək göstərici İtaliya yığmasında 176 oyun keçirən Canluici Buffona məxsus idi.

Qeyd edək ki, İsveçrə - İspaniya görüşü 1:1 hesablı heç-heçə ilə başa çatıb.

# "Gözümü açandan evdə muğam səsi eşitmişəm"

***""Segah" ifa edəndə Qarabağ gözümün önündən keçir. "Segah" birbaşa Qarabağla əlaqəlidir. "Segah" ladında bir sızıltı, yanğı, xalqın qan yaddaşı var. Muğamların hər biri mənə əzizdir, amma "Segah" ifa edəndə gözümün önündə Qarabağ canlanır". "Ədalət" qəzetinin qonağı tarzən Rəşad İbrahimovdur.***



**-Rəşad bəy, zəhmət olmasa, özünüzü təqdim edin...**

-İbrahimov Rəşad Qəşəm oğlu. Tar ifaçısıyam, tarzənəm. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistraturasını bitirmişəm. Hazırda Azərbaycan Milli Konservatoriyasında, həm də Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kollecində çalışıram. Bununla yanaşı Beynəlxalq Muğam Mərkəzinin də solistiyəm.

**-Qarabağ bölgəsindənsiniz. Düzdür, siz orada yaşamamısınız, amma mütləq ki, valideynləriniz doğma Qarabağımız haqqında sizə məlumat veriblər...**

-Bəli, Qarabağdanam. Azərbaycanın hər bir bölgəsi mənə əzizdir. Əsas olan oldur ki, hər birimiz azərbaycanlıyıq. Hazırki dövrdə hər bir azərbaycanlı Qarabağlıdır. Əslən Qarabağın Ağdam bölgəsindənəm. Orada dünyaya göz açmasam da, ata-baba yurdum Ağdamdır. Şükür olsun ki, Ağdam da yaxın günlər ərzində azad ediləcək. Şəhidlərimizin, qazilərimizin, döyüşçülərimizin sayəsində Qarabağ məsələsi həll olundu. Ali Baş Komandanın ətrafında hər kəs bir yumruq kimi birləşdi, Ordumuz Qarabağ uğrunda vuruşdu və qələbə bizim oldu. Böyük qələbədir. Bu günlər insana yuxu kimi gəlir, amma şükür olsun ki, həqiqətdir. Şəhidlərimizə görə də kədərlənirik. Amma belə bir deyim də var: "Torpaq su ilə qarışanda palçıq olur, qan ilə qarışanda Vətən".

Valideynlərim Ağdam, Qarabağ haqqında çox danışıblar. Qarabağ Vətənimizin mühim bir güşəsidir. 5 yaşımda Şuşada olmuşam. Dumanlı da olsa, həmin vaxtı xatırlayıram. Şuşadakı Gövhər Ağa Məscidi xəyalımda canlanır. Yaşım az olsa da, həmin məqamlar yaddaşıma həkk olunub. Əmilərimdən biri Şuşada yaşayırdı. Təəssüf ki, o vaxt Şuşa işğal olunanda oranı tərk etməli olub. Amma indi şükürlər olsun ki, Şuşamız bizimdir. Ağdam da yadıma gəlir. Hər zaman evimizdə Qarabağla bağlı söhbətlərə üstünlük vermişik. Qarabağın nisgilini çox çəkmişik. Bizim kənd işğalda olmasa da, cəbhəyə yaxındır. Hərdən gedib oradan Ağdama boylanırdım. Baxanda qəhərlənirdim, mənə pis təsir edirdi. Həsrətlə baxırdım. Şükürlər olsun ki, torpaqlarımızı geri qaytardıq.

### *"Qarabağ muğamlarımızın beşiyidir"*

**-Sənətə gəlməyinizi Qarabağlı olmağınızla əlaqələndirə bilərikmi?**

-Sözsüz ki, elədir. Gözümü açandan evdə muğam səsi eşitmişəm. Atam həmişə evdə lent yazılarına qulaq asardı. Atam evdə olmayanda isə özüm dinləyərdim. Qeyd edim ki, əmim Mənsum İbrahimov xanəndədir. Onu hər kəs tanıyır. Genetik olaraq sənətə olan sevgi bizə ötürülüb. Uşaqlıqdan tara, kamançaya, muğama sevgi olub məndə. Milli musiqiyə sevgi olub. Bölgənin təsiri, əlbəttə ki, var. Əbəs yerə deyilmir ki, Qarabağ muğamlarımızın beşiyidir. Azərbaycanın bütün bölgələrindən gözəl ifaçılar var. Amma Qarabağ mühiti bir az başqadır. Hər iki insandan birində demək olar ki, səs var. Əmilərimdə də, atamda da səs olub. Onlardan yalnız Mənsum müəllim sənətin arxasınca gedib. Mən də onlara, böyük sənətkarlara baxıb, tarzənləri dinləyib sənətə gəlmişəm. İnsan gözünü açanda nə görürsə, onunla da formalaşır. Mən də muğam gördüyüm üçün ruhum sənətə yaxın olub.

**-Tarın sarı siminə toxunanda insanın qəlbi titrəyir, birmənalı şəkildə Qarabağ göz önündə canlanır...**

-"Segah" ifa edəndə Qarabağ gözümün önündən keçir. "Segah" birbaşa Qarabağla əlaqəlidir. "Segah" ladında bir sızıltı, yanğı, xalqın qan yaddaşı var. Muğamların hər biri mənə əzizdir, amma "Segah" ifa edəndə gözümün önündə Qarabağ canlanır. Şuşa, o yerlər, özümün uşaqlıq xatirələrim, valideynlərimin danışdıqları hər biri canlanır.

### *"Muğamın sütunu tardır"*

**-Sizə hansı musiqi daha çox doğmadır?**

-Milli musiqilərimiz, muğamlarımız çox doğmadır. Bütün azərbaycanlılar muğamı sevirlər. Muğamın sütunu tardır. Alətlərimizin şahı da tardır. Bütün alətləri sevirik, amma muğamın kökü tardır. Daha sonra professsional bəstəkarların musiqilərini də sevirəm. Üzeyir bəy Hacıbəyovu, Fikrət Əmirovu, Qara Qarayevi, Arif Məlikovu çox dinləyirəm. Allah Üzeyir bəyə rəhmət eləsin, muğamlarımızı bir araya gətirib. Ruhu şad olsun, artıq Şuşamız işğaldan azad olunub. Üzeyir bəy bizim professional musiqimizin banisidir. Ondan sonra çoxlu bəstəkarlar yetişdi. Dünya musiqilərini də dinləyirəm, amma ruhuma yaxın muğamlarımızdır, milli musiqilərimizdir.

**-İkinci Vətən müharibəsində əminizoğlu qəhrəmancasına şəhid oldu. Bu barədə danışaq...**

-Bizim nəslimizdən iki nəfər şəhid var: İbrahimov İsrafil Zülfüqar oğlu, Nərimanov İdris Nazim oğlu. Bu iki şəxslə yanaşı başqa qohumlarım da döyüşlərdə iştirak edib. Ceyhun qardaşım, xalamoğlu Mehman hazırda cəbhədədir. Ceyhun hətta yaralanmışdı, yarası sağaldı, yenidən döyüşlərə qatıldı.

Əmimoğlu müharibənin ilk günlərindən döyüşlərdə olub. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində yer alırdı. Sentyabrın 27-dən oktyabr ayının 26-sına qədər qəhrəmancasına döyüşüb, düşmənin xeyli canlı qüvvəsini məhv edib. İgidlik göstərib. Vətən sevgisi onun qanında olub. Atamgilin özü yeddi qardaşdırlar ki, onlardan da beşi Birinci Qarabağ müharibəsində iştirak edib. O beş nəfərdən üçü qazidir. İsrafilin dəfn mərasimində Bayrağı atasına təqdim edəndə qeyd etdi ki, Şəhidlik mənə və əmilərinə qismət olmadı, amma oğluma qismət oldu. Dedi ki, bununla fəxr edirəm, Vətən sağ olsun!

İsrafilin yaralı döyüş yoldaşları ilə danışanda deyirlər ki,



çox mərd oğlan olub İsrafil. Laçın uğrunda gedən döyüşlərdə Şəhid oldu. Ağdamda Quzanlıda dəfn etdik. Allah bütün Şəhidlərimizə rəhmət eləsin. Əmimoğlu gülə-gülə döyüşlərdə iştirak edirdi. Əmimlə danışanda deyib ki, mən Şəhid olsam, məni ağlamayın. Şəhid olmağı arzulayaraq düşmən üzərinə getdi. Vətən uğrunda Şəhid oldu. Şəhidlərimizin məkanları cənnət olsun. Allah Şəhidlərimizə rəhmət eləsin.

**Rövşən Tahir**

# Sənətin ən fərqli növlərindən biri - Yerləşdirmə

**Yerləşdirmə ya da installyasiya, ənənəvi sənət əsərlərindən fərqli olaraq, ətrafdan müstəqil bir sənət obyekti ehtiva etməyən, müəyyən bir məkan üçün yaradılan, məkanın xüsusiyyətlərini istifadə edib araşdıran və tamaşaçı iştirakının təməl bir vaciblik olduğu sənət növüdür.**

Bağlı və ya açıq məkanlarda qurula bilər. Kökləri konseptual sənət və hətta 20-ci əsrin əvvəllərindəki Marcel Duchamp'ın hazır - istehsalları və Kurt Schwitters'ə qədər gedən installyasiya, digər adıyla yerləşdirmə sənəti, müasir sənətdə memarlıq və performans xaricində bir çox başqa vizual sənət intizamını da dəstək alan məlez (hibrid) bir tərzdir .



1960-cı illərin ABŞ və Avropasında toplanış (assemblage) və ətraf terminləri sənətçilərin müəyyən bir məkanda bir araya gətirdikləri vəsaitlər üçün istifadə edilsə də, yerləşdirmə təbiri yalnız əsərlərin sərgilənmə şəkli, məsələn şəkillərin divara nə şəkildə və necə bir nizamda asıldığını ifadə etmək üçün istifadə edilirdi.

1960-cı illərdə 'bir ətraf olaraq sənət əsəri' fikri, tamaşaçının yalnız baxmaqla qalmayıb dünyada yaşadığı kimi sənət əsərinin içində "yaşaması", hətta zaman zaman onun bir parçası olması düşüncəsini gətirdi. Bu mövzudakı əhəmiyyətli insanlardan biri Robert Smithsondur.



Yer (daha böyük bir məkan içində müəyyən bir yer) və yer olmayan (bu yerin qalereyada fotoşəkil, xəritə, müxtəlif material və sənədlərlə təkrardan təqdimatı) arasında bir ayrım etmişdir. Bu ayrı-seçkilik əhəmiyyətli idi, çünki Smithson və Michael Heizer, Nancy Holt, James Turrel və Walter de Maria kimi digər ərazi sənətçiləri qalereya xaricində işlərinə baxmayaraq, işləri qalereya sistemi tərəfindən təmin edilən çərçivəyə asılı qalıb.

**Eminquey**

# "Barselona" 6 futbolçusunu göndərir

**"Barselona" heyətində böyük dəyişikliyə hazırlaşır.**

Qol.az xəbər verir ki, Kataloniya klubu qışda 6 futbolçusu ilə yolları ayırmağı planlaşdırır. Bunlar Ektor Firpo, Samuel Umtiti, Mateus Fernandes, Martin Braytvayt, Karles Alenya, Rikardo Puçdur.

Baş məşqçi Ronald Kumanın planlarına daxil olmayan Firpo ilə "İnter" və "Napoli" maraqlanır. Umtitinin tezliklə icarəyə veriləcəyi gözlənilir. Fransalı müdafiəçi ilə "Lion" və "Roma" danışıq aparır.




**"Barselona" gənc futbolçular Karles Alenya və Rikarod Puçu icarəyə göndərməyə hazırlaşır. Alenya ilə İngiltərə və İtaliya klublarının maraqlandığı, Puçun isə "Portu" və ya "Benfika"ya keçəcəyi bildirlib.**

SƏADƏT SULTAN

# PƏLƏNGİN QİSASI



*(Hekayə)*

Zooparkda adi günlərdən biri idi. Səlim dayı bir-bir qəfəslərin içinə nəzarət edib onların təmizliyinə baxırdı. Müxtəlif ölkələrdən gətirilib Bakı zooparkına nümayiş üçün yerləşdirilən bu heyvanların hər birinin özünəməxsus xarakteri vardı.

Məsələn, canavarlar heç vaxt bir yerdə dayanmır, qəfəsin içində var-gəl edirdilər. Ayılar - xüsusən burada olan qonur ayılar daha məşhur idi. Müxtəlif quş növləri - qartallar, flaminqolar, çöl quşları, nadir quş növlərindən - qızılquş, şahinlər, durna, leylək və s. quşlar da xüsusi qəfəslərdə saxlanılırdı.

Ən çox diqqət çəkən isə vəhşi təbiət heyvanları - şirlər, pələnglər, leopardlar, bəbirlər və s. idi.

Zooparka heyvanları ziyarətə gələn azyaşlı uşaqlar bu faunanın gözəlliklərinə heyranlıqla baxırdılar. Uşaqların dünyasında xüsusi yeri olan zoo aləm, canlı heyvanlarla daha yaxından tanış olma marağı həmişə olub.

Adi günlərdən biri idi. Atası Səlim balaca Vüqara onu zooparka aparacağına söz vermişdi. Qəfil gələn qonaq - Səlimin yaxın dostu Bilal, onlarla birlikdə heyvanat aləminə zooparka getmək istəyirdi. Xasiyyətindəki yaramazlıq hələ də qalırdı. Səlim onun xarakterindəki çılğınlığa çoxdan alışmışdı. Balaca Vüqarın inadkarlığından qurtula bilməyəcəyini görüb:

- Yaxşı, oğul bala, bir az səbr elə, Bilal dayı ilə birlikdə gedəcəyik.
- Bax, ata, söz verdin aa...
- Gəl gedək, uşağın ürəyini üzmə daha - deyə, dostu Bilal dilləndi.

Evdən çıxanda hava sakit idi. Heyvanları görəcəyinə sevinirdi balaca Vüqar. Zooparkın qapısına çatıb kassadan iki böyük, bir balaca üçün bilet alıb içəri keçdilər. Qəfəsdə var-gələn heyvanların narahatlığı qəribəlik doğururdu.

Səlim Vüqara heyvanlar haqqında danışır, uşağın təsəvvüründə yaratdığı zooaləmə bir az da rəng qatırdı.

Oğlu ilə heyvanlara, quşlara seyr etməkdə ikən, Bilalın hara yoxa çıxdığını bilmədi. Bilal zooparkın vəhşi heyvanlar olan hissəsində bir uşağın pələngi yaxından telefona çəkmək istədiyini gördü. Hətta anası ilə mübahisə edib, pələngin üzünü onlara tərəf çevirmədiyinə etiraz edərək, ağlamağa başladı.

Uşaq ani olaraq, yerdən daş götürüb qəfəsin o üzünə atmaq istədi. Kənardan baxan yaşlı qadın məzəmmətlə uşağa tərəf gəlib:

- Heyvana, özü də vəhşi heyvana daş atmağın bədəli çox ağır olur...

Bu sözləri eşidən Bilal qəşş elədi:

- Heç bir qorxusu yoxdu, o nə qanır ki...
- Məndən söyləməkdir... - deyə, qadın acıqla Bilala tərəf baxdı.

Yaşlı qadının bu sözlərinə əhəmiyyət verməyən Bilal yerdən bir daş götürüb pələng oturan qəfəsə atdı. Gözlənilməz halda daş pələngin belinə dəydi. Qəzəblənən pələng Bilala tərəf baxıb nərə çəkdi.

Vəziyyətin bu qədər ciddiyə çevriləcəyini düşünməmişdi Bilal. Qorxusundan ayaqyoluna tərəf nə vaxt qaçdığının fərqinə varmadı. Orda olarkən, zooparkda qalxan hay-küydən təlaş keçirməyə başladı. Bayıra çıxanda, camaatın qorxaraq, o tərəf-bu tərəfə qaçdığını, qışqırışdığını gördü. Pələng qəfəsdən çıxmışdı. Nə baş verdiyini anlamırdı - elə ətrafa baxmağa macal tapmamış, bir qədər aralıda onunla üz-üzə dayanan pələngi gördü. Artıq gec idi...

Bilal canını qurtarmaq üçün qaçmağa üz qoydu. Amma nə fayda - heyvanın daxilindəki qisas hissi onu daha sürətlə qaçmağa sövq edirdi. Bilal hər şeyin bitdiyini və pələngin ovuna çevriləcəyini düşündükcə, soyuq tər onu basırdı...

Xilasetmə komandası artıq gecikmişdi. Bilal pələngin pəncəsindən özünü qurtara bilməmişdi. Şikarını divarın küncünə sıxıb, qisasını aldıqdan sonra pələng həmin yerdən uzaqlaşmaq istədiyi anda xilasedicilər onu uzaqdan nişan aldılar. Heyvan elə oradaca yıxılıb qaldı...

## *Ramil Şeydayev: "Uğura birlikdə nail olacağıq"*



**"Biz evimizə 3 xalı gətirə bilmədik, amma ruhdan düşmürük".**

**Qol.az xəbər verir ki, bu sözləri millimizin hücumçusu Ramil Şeydayev Millətlər Liqasının 5-ci turunda Monteneqro ilə qolsuz heç-heçə etdikləri oyundan sonra İnstaqram hesabında yazıb. "Sabah"ın futbolçusu qrup mərhələsinin sonuncu turunda Lüksemburqla keçiriləcək oyuna hazırlaşdıqlarını bildirib: "Biz komandayıq və mütləq uğura birlikdə nail olacağıq".**

**Qeyd edək ki, noyabrın 17-də "Jozi Bartel" stadionunda keçiriləcək Lüksemburq - Azərbaycan oyunu Bakı vaxtı ilə saat 23:45-də başlayacaq.**

Quba rayonu Afurca kənd sakini Mustafayev Nizami İdris oğluna məxsus 0.12 ha həyətyanı torpaq sahəsi üçün Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən verilmiş 02.12.2006-cı il Qeydiyyat tarixli seriya MH № 000 3996 ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 16.11.2020